# ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 02 (1399) ❖ Cümə, 19 yanvar 2024-cü il ❖ Qəzet 1984-cü ildən nəşr olunur


# Prezident İlham Əliyev Lənkəran və Neftçala rayonlarına səfər edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Lənkəran rayonuna səfər edib.**

Dövlətimizin başçısı "Lenk Fruit" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) Lənkəran rayonunun Separadi kəndində yeni salınmış sitrus bağında yaradılan şəraitlə tanış olub.

Prezident İlham Əliyevə yeni sitrus bağı haqqında məlumat verən "Lenk Fruit" MMC-nin direktoru Namiq Cəbiyev bildirib ki, bağın ümumi ərazisi 150 hektardır. Burada əsasən Türkiyədən gətirilmiş 141 min ədəd sitrus meyvələri, şaftalı və nektarin ağacı əkilib.

Ən müasir aqrotexniki xidmətlərin göstərildiyi bağda damcı üsulu ilə müasir suvarma şəbəkəsindən istifadə edilir. Bundan başqa, sitrus bağında respublikada ilk dəfə olaraq qış aylarında şaxtanın temperaturunu normal dərəcəyə salan, dəyəri 2,2 milyon ABŞ dolları olan 15 ədəd xüsusi avadanlıq quraşdırılıb. Bir avadanlıq 9 hektar ərazini şaxtadan qoruyur. Növbəti illərdə daha 5 ədəd belə avadanlığın quraşdırılması nəzərdə tutulub.

Qeyd edilib ki, 2023-2024-cü təsərrüfat ilində 3 min ton məhsul yığılıb və hazırda yığım davam etdirilir. İstehsal olunan meyvələr ölkə bazarlarında satılmaqla yanaşı, Rusiyaya da ixrac edilir. Gələcəkdə təsərrüfatın daha da genişləndirilməsi, o cümlədən dağətəyi ərazilərdə terras əkin sxemləri ilə sitrus sahələrinin yaradılması üçün hazırlıq işləri aparılır.

Hazırda təsərrüfatda 140 nəfər işlə təmin olunub.

Dövlətimizin başçısı həmin gün Lənkəran regional "ASAN xidmət" mərkəzinin açılışını edib və mərkəzi işə salıb.

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev mərkəz barədə dövlətimizin başçısına məlumat verib.

Bildirilib ki, Lənkəran regional "ASAN xidmət" mərkəzi rayonun Qurumba kəndində inşa edilib. Mərkəz üçün ayrılmış iki hektar ərazidə üçmərtəbəli inzibati bina, fəvvarə, yerüstü avtomobil dayanacağı, istirahət və uşaq əyləncə meydançası, "ASAN Kafe" yaradılıb.

Məlumat verilib ki, Lənkəran, Astara, Lerik və Yardımlı rayonlarında qeydiyyatda olan ümumilikdə 500 minə yaxın vətəndaşa xidmət edəcək mərkəz ərazi məhdudiyyəti olmadan fəaliyyət göstərəcək. Burada 214 əməkdaş və 40 könüllü çalışacaq. Mərkəz videomüşahidə kameraları, yanğınsöndürmə, mərkəzləşdirilmiş havalandırma sistemləri, "ASAN ödəniş" terminalları, elektron şikayət, elektron rəy sorğusu və Çağrı mərkəzinə zəng köşkləri və müasir avadanlıqlarla təchiz edilib.

Regionda startapların inkişafını təmin etmək məqsədilə burada "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi də fəaliyyət göstərəcək.

Burada, həmçinin ASAN İnnovativ İnkişaf Mərkəzinin fəaliyyət göstərməsi nəzərdə tutulur. Əsas məqsəd qabaqcıl ASAN təcrübəsini, innovativ və yeni təlim metodlarını tətbiq etməklə ölkəmizdə müxtəlif özəl və dövlət qurumlarında çalışan kadrların peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsinə müsbət töhfələr verməkdir.

Qeyd olunub ki, fevralın 7-də keçiriləcək prezident seçkiləri ilə əlaqədar "ASAN xidmət" mərkəzlərində innovativ həll təmin edilib. Belə ki, mərkəzlərdə olan "ASAN növbə" terminallarına "Seçici statusunu yoxla" adlı funksional bölmə əlavə olunub. Vətəndaşlar şəxsiyyət vəsiqələrini qeyd edilən yerdə oxudaraq adlarını seçici siyahısında yoxlaya və hansı seçki məntəqəsində səs verməli olduqlarını öyrənə bilərlər. Həmçinin qeydiyyat üzrə seçki dairəsi və məntəqəsi, səs veriləcək seçki məntəqəsinin ünvanı haqqında məlumatları əldə etmək mümkündür. Bu yeni layihə Mərkəzi Seçki Komissiyası və "ASAN xidmət"in birgə layihəsi çərçivəsində reallaşdırılıb. Eyni zamanda, "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "ASAN xidmət" tərəfindən həyata keçiriləcək tədbirlərlə bağlı da konseptual plan hazırlanıb. Plana əsasən, bir sıra forum, müsabiqə, hakaton və festivallar təşkil olunacaq.

İşğaldan azad olunmuş ərazilərdə "ASAN xidmət"lə əlaqədar bildirilib ki, mərkəzlərin qurulması üçün Dövlət Agentliyi tərəfindən 7 rayonda təhlillər aparılıb. Təhlillər nəticəsində proqnozlaşdırılan müraciət sayı və əlverişli coğrafi mövqeyə uyğun olaraq Ağdam, Laçın və Cəbrayıl rayonlarında "ASAN xidmət" mərkəzlərinin qurulmasının məqsədəuyğunluğu müəyyənləşdirilib. Eyni zamanda, hazırda Şuşa şəhərində də "ASAN xidmət"in binasının inşası davam etdirilir.

Qeyd edilib ki, bu il yanvarın 8-dək "ASAN xidmət" mərkəzlərinə 8 milyon 890 mindən çox vətəndaş tərəfindən 70 milyona yaxın müraciət daxil olub. Keçirilən rəy sorğularına əsasən, vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,8 faiz təşkil edir.

Dövlət Agentliyi "ASAN xidmət" modelinin ixracı ilə bağlı 20-dən çox ölkə və beynəlxalq təşkilatla müqavilə imzalayıb.

Dövlətimizin başçısı həmin gün Ədliyyə Nazirliyinin Lənkəranda yeni inşa edilmiş müasir penitensiar kompleksində yaradılan şəraitlə də tanış olub.

Sonra Prezident İlham Əliyev Lənkəranda "Laran" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) qənnadı məhsullarının istehsalı müəssisəsinin fəaliyyəti ilə tanış olub və dövlətimizin başçısına Cəmiyyətin direktoru Nurlan Nurəliyev müəssisədə yaradılan şərait, eləcə də istehsal olunan məhsullar barədə məlumat verib.

Həmin gün Prezident İlham Əliyev Lənkəran şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə gül dəstəsi qoyub.

Yanvarın 16-da Prezident İlham Əliyev Neftçala rayonuna da səfər edib. Dövlətimizin başçısı Neftçala şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Dövlətimizin başçısı Neftçala şəhərinin içməli su təchizatı sistemlərinin istismara verilməsi tədbirində iştirak edib.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Bildirilib ki, Neftçala şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi dövlət büdcəsi hesabına həyata keçirilir. Layihə Neftçala rayonu üzrə 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla 89 min nəfərin içməli su təchizatının yaxşılaşdırılmasına hesablanıb.

Yeni yaradılmış infrastrukturun imkanları hesabına ötən müddətdə Neftçala şəhəri ilə yanaşı, rayonun içməli sudan əziyyət çəkən 39 yaşayış məntəqəsinin problemi həll edilib. Neftçala rayonunun qalan 11 yaşayış məntəqəsi və Salyan rayonunun 6 kəndi də daxil olmaqla, ümumilikdə 17 yaşayış məntəqəsinin su təminatının yaxşılaşdırılması məqsədilə 76 kilometr uzunluğunda kəmər, tutumu 7500 kubmetr olan su anbarı və 1 su nasos stansiyasının inşası layihələndirilib.

Qeyd olunub ki, indiyədək su xəttinin 64 kilometrlik hissəsi çəkilib, anbarların və nasos stansiyasının tikintisi davam etdirilir.

Prezident İlham Əliyev Neftçala şəhərinin içməli su təchizatı sistemlərini işə salıb.

## AMEA-nın prezidenti akademik İsa Həbibbəyli:

# “Fransanın heykəlini təhqir etdiyi Natəvanın “Gül dəftəri” adlı şeirlərdən ibarət rəsmli əlyazması UNESCO-nun Dünya Yaddaşı Reyestrinə daxil edilib”

**Azərbaycanın görkəmli şairəsi və ictimai xadimi Xurşidbanu Natəvana Fransada göstərilən təhqiramiz münasibət bu ölkədə insana və sənətə münasibətdə bütün dəyərlərin itdiyini göstərir.**



İnsanın ən dərin düşüncələrini yüksək bədii səviyyədə tərənnüm etməklə Xurşidbanu Natəvanın insanlığa göstərdiyi xidmətin müqabilində Fransanın Azərbaycanın qadın şairəsinin heykəlinə bəslədiyi qeyri-insani münasibət bu ölkənin özünü hansı səviyyədə aşağı endirdiyini əyani şəkildə nümayiş etdirir. Hələ XIX əsrdə “Məclisi-üns” kimi ədəbiyyat məclisinə bacarıqla rəhbərlik etmiş qadın şairənin heykəlinin Fransada aşağılanması Viktor Hüqonun vətənində sənət dəyərlərinin də artıq itirildiyini diqqətə çatdırır. Fransız yazıçısı Aleksandr Düması Azərbaycanın qədim və gözəl guşələrindən biri olan Qarabağda qonaq edib duzçörəklə qarşılayan, lütfkarlıq edib onunla şahmat taxtası arxasında əyləşən Xan qızı Xurşidbanu Natəvanla müqayisədə Fransa rəsmiləri tutduqları məqamdan çox kiçik görünürlər. Fransa prezidenti Makronun uğursuz siyasəti fransız xalqını bütün insanlıq və sənət dəyərlərini itirmək təhlükəsi ilə üz-üzə qoymuşdur. Sarı jiletli xalqın nümayəndələrinin Paris şəhərinin küçələrindəki həyəcanlı çıxışları, etiraz əlaməti olaraq atdıqları dağıdıcı addımlar fransız xalqının heç də hamısının Fransa iqtidarı ilə eyni fikirdə olmadıqlarını görməyə tam əsas verir. Deməli, dəyərlərini itirən xalq deyil, ikili standartlarla dünyada artıq etibarı gözdən düşmüş Fransa rəsmiləridir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibədə haqlı olaraq bildirdiyi kimi, “öz-özlüyündə vandalizm aktı olan Natəvanın heykəlinin təhqir edilməsi, onun selofana bükülməsi, ...gücsüzlük və isterikanın özünü heykəldə göstərməsi” Fransa iqtidarının məhkum olduğu “mənəvi deqradasiyanın dibi” deməkdir. Fransanın mənəvi deqradasiyası isə onun siyasi iflasının qarşısıalınmaz bir həddə çatmasının göstəricisidir.

İşğalçı Ermənistana verdiyi süni dəstəyin isə erməni xalqı faktorundan istifadə etməklə, bədbəxt erməniləri aldatmaq yolu ilə Fransanın Afrikada itirilmiş mövqelərini Qafqazda bərpa etmək xülyasından başqa bir şey olmadığını dünyada hər kəs, o cümlədən ermənilər də yaxşı başa düşürlər. Fransanın növbəti müstəmləkəçilik planının ifadəsi olan bu səylər isə heç bir Qafqaz ölkəsində, o cümlədən, hətta sadə erməni xalqının iradəsi yetərli olan məqamda heç Ermənistanın özündə də baş tuta bilməz.

Fransanın hansı mövqe sərgiləməsindən asılı olmayaraq, Xurşidbanu Natəvanın ölməz sənəti özünün yüksək ideya-bədii dəyərlərini qoruyub saxlayır. Xan Qızı Natəvanın XIX əsrdə yüksək zövqlə hazırladığı “Gül dəftəri” adlı rəsmli şeir kitabının nadir əlyazmasının Dünya Yaddaşı Reyestrinə daxil edilərək beynəlxalq miqyasda qəbul edilməsi və qorunması haqqında UNESCO-nun 2023-cü ildə səsvermə yolu ilə qəbul etdiyi qərar Azərbaycan şairəsinin zəngin ədəbi irsinə dünya miqyasında verilmiş böyük qiymətin isbatıdır. Eyni zamanda, Ermənistanın vəhşicəsinə xarabazarlığa çevirdiyi Ağdam şəhərində Xurşidbanu Natəvanın dağıdılmış məzarının, Şuşadakı uçurulmuş sarayının, bulaq abidəsinin və güllələnmiş heykəlinin torpaqlarını işğaldan azad etmiş müstəqil Azərbaycan dövləti tərəfindən yüksək səviyyədə yenidən bərpa edilməsi, həyata qaytarılması ədalətin təntənəsinin bariz nümunəsidir.

Bu gün Fransa dairələri Xurşidbanu Natəvanın heykəlinə bəslədikləri qeyri-insani təhqiramiz münasibətlə Birləşmiş Millətlər Təşkilatının tərkib hissəsi olan UNESCO-nun da prinsiplərini pozur və orada da etibarını itirir. Hesab edirəm ki, Birləşmiş Millətlər Təşkilatı UNESCO-nun Baş iqamətgahının dünya miqyasında qəbul edilən prinsipləri kobudcasına pozan Fransada yerləşməsi məsələsinə yenidən baxmalıdır.

Azərbaycan şairəsi və ictimai xadimi Xurşidbanu Natəvanın heykəlinə təhqiramiz münasibəti icra edənlər layiq olduqları cəzaya məhkum edilməlidirlər.

# AMEA alimləri Ədəbiyyat İnstitutunun Elmi şurasının genişləndirilmiş iclasında Fransada Xurşidbanu Natəvanın abidəsinin təhqir olunmasını vandalizm aktı hesab ediblər

**Azərbaycanın görkəmli şairəsi və ictimai xadimi Xurşidbanu Natəvanın Fransanın Evian-le ban şəhərində 2017-ci ildə ucaldılmış heykəlinə qırmızı boyanın atılması, heykəlin selofanla örtülməsi, əraziyə verilmiş “Azərbaycan parkı” sözünün çıxarılacağı ilə bağlı ortaya atılan iddialar Fransanın insanlığa, mədəniyyət, incəsənətə, bəşəri dəyərlərə və ölkəmizə qarşı vandalizm aktının növbəti təzahürüdür.**



Bu sözləri AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun yanvarın 15-də keçirilən Elmi şurasının genişləndirilmiş iclasında AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Fransada Xurşidbanu Natəvanın abidəsinin təhqir olunmasına münasibət bildirərkən deyib.

Akademik İsa Həbibbəyli bildirib ki, ölkə başçısı Azərbaycan televiziyalarına dərin məzmunlu geniş müsahibəsində bu hadisəni vandalizm aktı kimi qiymətləndirib və hadisədən sonra təkcə Fransadakı deyil, Avropadakı diaspora nümayəndələrimiz, fəallarımız heykəlin qarşısında etiraz aksiyası keçiriblər.

Azərbaycan cəmiyyətinin, ziyalılarımızın da bu hadisəyə sərt reaksiya verdiyini deyən akademik İsa Həbibbəyli ictimaiyyət nümayəndələrinin Natəvanın heykəlinə qarşı təhqiramiz münasibəti qətiyyətlə pislədiyini, dünya mədəniyyətinə böyük töhfələrini vermiş, Qarabağda “Məclisi-üns” kimi ədəbiyyat məclisinə bacarıqla rəhbərlik etmiş qadın şairimizə, mədəniyyət xadimimizin abidəsinə qarşı atılmış addımın, tək ölkəmizə deyil, eyni zamanda bəşəri mədəni irsə qarşı cinayət aktı kimi dəyərləndirildiyini vurğulayıb.

AMEA rəhbəri 44 günlük Vətən müharibəsində qazanılan Zəfərdən sonra Fransanın Azərbaycana qarşı münasibətinin kəskinləşdiyini, rəsmi Parisin məkrli şəkildə Ermənistana dəstək verdiyini, yeni müharibə toxumları səpməkdə olduğunu qəbuledilməz fakt kimi pisləyib. Bildirib ki, bu, Fransa dövlətinin Azərbaycanın Qarabağda qazandığı tarixi Zəfəri və ölkəmizin ərazi bütövlüyünü həzm edə bilməməsinin təzahürüdür.

Vətən müharibəsindən sonra Fransanın Ermənistanı cidd-cəhdlə silahlandırdığını deyən akademik İsa Həbibbəyli Fransanın başlıca niyyətinin Qafqazda yeni müharibə ocaqları yaratmaq olduğunu, bu düşüncənin Ermənistanı fəlakətə aparacağını söyləyib.

“Son illərdə Fransa Afrikadakı öz dayaqlarını itirir, yerli xalqlar Fransameyilli dövlət başçılarını ölkədən qovurlar. Fransa müstəmləkəçiliyi bu gün bütün dünyada, eləcə də Avropanın özündə etiraz doğurur. Bir sözlə, Fransa Afrikadan biabırcasına qovulur və orada itirdiyi dayaqlarını Qafqazda bərpa etməyə çalışır. Bunun üçün də ermənilərdən alət kimi istifadə edirlər. Lakin Prezident İlham Əliyev və Azərbaycan dövləti buna qətiyyətlə imkan verməyəcəkdir. Başda Türkiyə olmaqla digər region ölkələri və Türk dövlətləri də bu məsələdə qəti münasibətlərini bildiriblər”, - deyə AMEA prezidenti diqqətə çatdırıb.

Fransa prezidenti Emmanuel Makronun Fransada, eləcə də Avropada siyasi dəstəyini və imicini itirdiyini deyən natiq başda “Sarı jiletlilər” olmaqla, Fransa cəmiyyətinin özünün də Makronun siyasətinə qarşı ciddi etirazlarını bildirdiklərini vurğulayıb.

Xurşidbanu Natəvanın Azərbaycanın görkəmli qadın ziyalılarının ən görkəmli nümayəndələrindən biri olduğunu deyən akademik İsa Həbibbəyli şairənin dünya irsinə öz töhfələrini verdiyini, “Gül dəftəri - illüstrasiyalı şeirlər albomu”nun isə 2023-cü ildə UNESCO-nun Dünya Yaddaşı Reyestrinə daxil edildiyini xatırladıb. Bildirib ki, Xurşidbanu Natəvan Qafqaza səfər etmiş tanınmış fransız yazıçısı Aleksandr Düması evində qonaq edərək onunla şahmat masasının arxasında əyləşib, Azərbaycanın qonaqpərvərliyini, xalqımızın Fransa xalqına olan münasibətini göstərib, bütün bunların qarşılığında isə Fransada şairəmizin heykəli vəhşi münasibətlə üzləşib.

Akademik İsa Həbibbəyli, həmçinin ölkəmizdə Fransa ədəbiyyatı ilə bağlı önəmli tədqiqatların aparıldığını, fransız yazıçılarının əsərlərinin Azərbaycan dilinə tərcümə olunaraq çap edildiyini və bütün bunların xalqımızın, dövlətimizin yüksək bəşəri, mədəni dəyərlərin daşıyıcısı olduğunu bildirib.

AMEA prezidenti Viktor Hüqonun vətənində, Luvr kimi muzeyin, eləcə də UNESCO-nun Baş qərargahının yerləşdiyi ölkədə Natəvanın heykəlinə qarşı, mədəniyyətimizə qarşı göstərilən vandalizm aktını və Fransa prezidenti Emmanuel Makronun siyasətini qətiyyətlə pislədiyini bildirib, hadisəni törədənlərin layiqli cəzalarını almasını tələb edib.

Sonra AMEA-nın vitse-prezidenti v.i.e., akademik Gövhər Baxşəliyeva, AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli, AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun direktoru AMEA-nın müxbir üzvü Ərtegin Salamzadənin etiraz ideyasını ifadə edən çıxışları səsləndirilib. Həmçinin fransız yazıçısı Aleksandr Dümanın “Qafqaz səfəri” əsərinin tərcüməçisi AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, professor Qəzənfər Paşayev, Natəvan haqqında yazılmış monoqrafiyanın müəllifi Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya elmləri doktoru İslam Qəribov, şairənin əsərlərinin tədqiqatçısı şöbə müdiri, professor Tahirə Məmməd və Azərbaycan-Fransa ədəbi əlaqələrinin araşdırıcısı, institutun dissertantı Şəhla Qurbanova çıxış ediblər. Çıxışlarda Natəvanın heykəlinə qarşı törədilmiş vandalizm aktının Fransanın Azərbaycana qarşı kin-küdurətinin göstəricisi olduğu bildirilərək Azərbaycan-Fransa ədəbi əlaqələrindən danışılıb, Fransanın Evian-le ban bələdiyyəsinin üzr istəməsinin vacibliyi diqqətə çatdırılıb.

Qeyd olunub ki, Fransa tarixən Əlcəzairdə, Tunisdə, Mərakeşdə və digər Afrika ölkələrində törətdiyi soyqırımlarla bəşəriyyətə, insanlığa qarşı olan vəhşi münasibətini göstərib. Çıxışlarda vurğulanıb ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı qətiyyətli qələbədən sonra Fransadakı erməni diasporunun təzyiqləri nəticəsində rəsmi Parisin ölkəmizə qarşı münasibəti pisləşib və ötən müddət ərzində Fransanın rəsmiləri insanlıqdan uzaq, ədalətsiz qərarlar qəbul ediblər.

Həmçinin Natəvanın “Gül dəftəri - illüstrasiyalı şeirlər albomu”nun UNESCO-nun Dünya Yaddaşı Reyestrinə daxil edilməsinin şairənin bəşəri ideyaların daşıyıcısı olduğunu, lakin buna baxmayaraq şairənin abidəsinin Fransa tərəfindən insanlığa sığmayan rəftara məruz qaldığını vurğulayıblar.

Sonda çıxış edən akademik İsa Həbibbəyli Azərbaycan dövlətinin Prezident İlham Əliyevin liderliyində qazandığı tarixi Zəfərin və əldə etdiyi iqtisadi, siyasi uğurların artıq dünya tərəfindən qəbul olunduğunu, Azərbaycanın dünyaya sülh, ədalət, qarşılıqlı etimad, əməkdaşlıq təqdim etdiyini nəzərə çatdırmaqla bildirib ki, Fransada Xurşidbanu Natəvanın heykəlinə qarşı təhqiramiz münasibət bildirənlər layiqli cəzalarını almalıdırlar.

# AMEA-da Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsindən irəli gələn vəzifələrlə bağlı müzakirələr aparılıb



**AMEA-nın Humanitar və İctimai Elmlər bölmələrində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 yanvar 2024-cü ildə yerli televiziya kanallarına müsahibəsindən irəli gələn vəzifələrə həsr olunmuş müzakirə keçirilib.**

Tədbirdə çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli dövlət başçısının müsahibədə səsləndirdiyi “Ancaq mən istərdim ki, cəmiyyətdə də bu məsələ ilə bağlı diskussiyalar getsin, siyasətçilər, politoloqlar, elm adamları, ziyalılar, yəni, bizim gələcək inkişafımızla bağlı əsas milli ideya və ideyalarımız nə olmalıdır. Bu, bir ictimai müzakirə mövzusu olmalıdır”, - sözlərini diqqətə çatdırıb və bu istiqamətdə müzakirələrin aparılacağını söyləyib.

Akademik İsa Həbibbəyli qeyd edib ki, müsahibədə Azərbaycanın inkişafında xüsusi mərhələ olan ötən 20 ilə yekun vurulmuş, yeni tarixi dövrün vəzifələri və çağırışları öz əksini tapmışdır. Dövlətimizin başçısı müasir tariximizin yeni dövrünün 20 sentyabr 2023-cü il tarixindən, yəni ərazi bütövlüyümüzün və suverenliyimizin tam təsdiq olunduğu gündən başladığını diqqətə çatdırıb.

AMEA rəhbəri vurğulayıb ki, Prezident İlham Əliyevin liderliyində Azərbaycanın keçdiyi möhtəşəm 20 ildə siyasi, iqtisadi, hərbi, elmi, ədəbi-mədəni sahələrdə əldə olunan böyük uğurlar və bu nailiyyətlərin zirvəsi olan Vətən müharibəsindəki tarixi Zəfər və ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa edilməsi çoxəsrlik dövlətçilik tariximizin ən parlaq səhifələrindəndir və birbaşa Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycan dövləti və xalqı qarşısındakı misilsiz xidmətidir.

Akademik İsa Həbibbəyli vurğulayıb ki, hazırda qarşımızda duran başlıca vəzifə ölkə Prezidentinin bildirdiyi kimi, gələcək dövr üçün milli ideyamızın və dövlətimizin yeni inkişaf strategiyasının müəyyənləşdirilməsində iştirak etməkdən ibarət olmalıdır.

AMEA prezidenti vurğulayıb ki, dövlətimizin ideologiyası Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi Azərbaycançılıq ideologiyasıdır və milli ideya və ideyalarımız bu ideologiyanın müasir dövrün reallıqlarına cavab verən və növbəti ümummilli hədəfləri və inkişaf strategiyasını müəyyənləşdirən yeni istiqamətləri əks etdirilməli, onu daha da şaxələndirməli və irəliyə doğru baxışı təmin etməlidir.

Bu gün müstəqil Azərbaycan dövlətinin İlham Əliyev kimi güclü liderinin olmasını xalqımızın ən böyük sərvəti olduğunu bildirən natiq milli ideyanın müəyyənləşdirilməsi ilə bağlı aparılan müzakirələrin mühüm ictimai-siyasi məsələ olmaqla bərabər, həm də müasir elmi-nəzəri yanaşma tələb etdiyini söyləyib. Bildirib ki, bu gün Azərbaycan elmi müstəqil dövlətimizə və xalqımıza xidmət etmək vəzifəsini məsuliyyətlə həyata keçirir, dövlət başçısının apardığı məqsədyönlü siyasətə uyğun olaraq Akademiyada Zəfər tarixi və Qələbə fəlsəfəsi ilə, Qərbi Azərbaycanla, Böyük Qayıdışla, eləcə də ölkəmizdəki güclü dövlət quruculuğu ilə bağlı sistemli tədqiqatlar aparılır.

Akademik İsa Həbibbəyli müstəqil Azərbaycan dövlətinin bundan sonrakı tarixi dövr üçün milli ideyasının müəyyənləşdirilməsi ilə bağlı müzakirələrin aparılmasını humanitar və ictimai elmlər sahələrini təmsil edən elm adamlarının borcu və vəzifəsi olduğunu nəzərə çatdırıb.

Sonra AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri fəlsəfə elmləri doktoru Füzuli Qurbanov “Yeni tarixi mərhələdə milli ideya və milli ideologiya” mövzusunda məruzə ilə çıxış edərək bildirib ki, milli ideyanın əsas prinsipləri rəqəmsal inkişaf mühitində qalib lider, güclü dövlət və güclü cəmiyyət vəhdəti əsasında formalaşdırıla bilər.

İctimai müzakirələrdə akademiklər Gövhər Baxşəliyeva, Möhsün Nağısoylu, Teymur Kərimli, Nərgiz Axundova, Muxtar İmanov, AMEA-nın müxbir üzvü Musa Qasımlı, professorlar Kərim Şükürov, İlham Məmmədzadə, Nadir Məmmədli, Əbülhəsən Abbasov, filologiya elmləri doktoru Sərxan Xavəri, tarix elmləri doktoru Güllü Yoloğlu, fəlsəfə üzrə fəlsəfə doktoru Şölət Zeynalov, Faiq Ələkbərli və Ağasəlim Həsənov çıxış edərək Azərbaycanın gələcək dövr üçün yeni milli ideyası ilə bağlı təklif və mülahizələrini səsləndiriblər.

Tədbirdə yeni tarixi dövr üçün milli ideya məsələsinə dair müzakirələrin davam etdirilməsi qərara alınıb.




## Ulu öndər Heydər Əliyevə həsr edilmiş “Tale yolları” kitabının müəllifi AMEA prezidentinə minnətdarlıq məktubu ünvanlayıb

**Bu günlərdə AMEA-nın “Elm” nəşriyyatında “Heydər Əliyev İli” çərçivəsində tanınmış rus yazıçısı və ictimai xadimi Nikolay Zenkoviçin görkəmli dövlət xadimi, Ümummilli lider Heydər Əliyevə həsr etdiyi ”Зигзаги судьбы” kitabı işıq üzü görüb. Kitabın “Ön söz”ünün müəllifi AMEA-nın prezidenti akademik İsa Həbibbəylidir.**

Bununla əlaqədar Nikolay Zenkoviç AMEA-nın prezidenti akademik İsa Həbibbəyliyə minnətdarlıq məktubu ünvanlayıb. Məktubda deyilir:

”Передайте, пожалуйста, господину Исе Габиббейли мою бесконечную благодарность за блестящее предисловие к книге. Оно будет украшать ее, как вишенка на тортике. Оно написано так всеобъемлюще, с таким проникновением в глубину авторского замысла, что нет необходимости вносить изменения на обложке Удачно подобран портрет Гейдара Алиева. Спасибо художнику.”

# Azərbaycan şeirinin orijinal nümunələrini yaratmış sənətkar

**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda unudulmaz şairə Nurəngiz Günün 85 illik yubileyinə həsr olunmuş “Poeziyamızın ağ çiçəyi Nurəngiz Gün” adlı tədbir keçirilib.**

Tədbir çərçivəsində Ədəbiyyat İnstitutunun Ədəbi tənqid şöbəsinin müdiri filologiya elmləri doktoru Vaqif Yusiflinin şairə həsr etdiyi “Poeziyamızın ağ çiçəyi Nurəngiz Gün” kitabının təqdimatı da olub.

Mərasimdə elm və mədəniyyət xadimləri, Milli Məclisin deputatları, sənətkarın ailə üzvləri və ədəbi ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə iştirakçılar şairin yaradıcılığına həsr olunmuş sərgi ilə tanış olublar.

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli ədəbiyyata “Tanrı” povesti ilə gələn Nurəngiz Günü istedadlı şairə, publisist və dəyərli insan kimi xarakterizə edib. O, “Poeziyamızın ağ çiçəyi Nurəngiz Gün” kitabının təqdimatının görkəmli sənətkar, şairə Nurəngiz Günün 85 illik yubileyinə təsadüf etməsini əlamətdar hadisə kimi qiymətləndirib.

AMEA rəhbəri müstəqillik dövrü ərəfəsi və müstəqillik dövründə Azərbaycan xalqı qarşısında böyük xidmətləri olan tanınmış şairə Nurəngiz Günün poeziyasının əsas xüsusiyyətlərindən bəhs edərək ədibin Azərbaycan şeirinin orijinal nümunələrini yaratmış böyük sənətkar olduğunu vurğulayıb. Bildirib ki, Nurəngiz Günün yaradıcılığında xalis lirika ilə yanaşı, ictimai motivlər də paralel şəkildə yer almış və bir-birini tamamlamışdır: “Hələ Sovet hakimiyyəti illərində Nurəngiz Günün yazdığı “Qəfəs Respublikası” adlı dərin ictimai məzmuna malik şeir böyük vətəndaşlıq missiyasının ifadəsinə malik olan qiymətli əsərdir”.






Akademik İsa Həbibbəyli qeyd edib ki, çoxcəhətli yaradıcılığa malik olan Nurəngiz Gün peşəkar yazıçı missiyasını həm lirikasında, həm də poemalarında yüksək səviyyədə yerinə yetirmişdir.

Onun sözlərinə görə, “Poeziyamızın ağ çiçəyi Nurəngiz Gün” kitabında şairənin yaradıcılığı bütün istiqamətlər üzrə dərindən təhlil olunmuş, elmi təhlillər aparılmışdır. AMEA prezidenti dörd hissədən ibarət olan, Nurəngiz Günün mükəmməl ədəbi portretinin yaradıldığı bu kitabda şairənin qızı, Milli Məclisin deputatı Jalə Əliyevanın da Nurəngiz Günlə bağlı müsahibəsinin yer aldığını və bu müsahibənin kitabda irəli sürülən müddəaları tamamladığını diqqətə çatdırıb. O, kitabda Nurəngiz Günün ömür yolunu, yaradıcılığını əks etdirən fotosalnamənin təqdim olunduğunu da vurğulayıb.

Sonra AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli “Şairə Nurəngiz Gün haqqında söz” mövzusunda məruzəsini təqdim edib. Ədibin 85 illiyi münasibətilə “Nurəngiz Günün güney poeziyası” adlı məqalə yazdığını deyən akademik Teymur Kərimli şairənin poeziyasının bəşəri problemlərin işığında qlobal mahiyyət daşıdığını, Vətən sevgisi, torpaq aşiqliyi, el vurğunluğu kimi məsələlərin onun yaradıcılığında prioritet təşkil etdiyini bildirib. Şairənin güney sevgisindən söz açan məruzəçi Nurəngiz Günün “Qəfəs bülbülü” şeirindən parça səsləndirib, ədibin şeirdə qlobal haqq-ədalət tələb etdiyini diqqətə çatdırıb.

Akademik Teymur Kərimli qeyd edib ki, Nurəngiz xanım Güney Azərbaycanın əsas simvollarından biri olan Ərk qalasına həsr etdiyi şeirində vətənpərvərlik, məğrurluq, əyilməzlik ehtiva edən bədii obraz yaratmışdır. Həmçinin şairənin yaradıcılığındakı ana obrazı da tamamilə yenidir. Yenilik isə ondadır ki, o, anaların hiss və duyğularını özü yaşayırmış kimi şeirə gətirmişdir.

“Nurəngiz Gün poeziyasının işığında” adlı məruzə ilə çıxış edən Azərbaycanda Atatürk Mərkəzinin direktoru, millət vəkili akademik Nizami Cəfərov ədibin yaradıcılığından, şeirlərinin özünəməxsusluğundan danışıb. O, Nurəngiz Günün müasir poeziyada xüsusi bir yer tutan, düşüncələri, ideyaları və şeirləri ilə ədəbiyyat tarixində əbədi yaşayacaq görkəmli şair olduğunu diqqətə çatdırıb.

Akademik Nizami Cəfərov ictimaiyyətə təqdim olunan “Poeziyamızın ağ çiçəyi Nurəngiz Gün” kitabının üstün cəhətlərindən bəhs edərək, nəşrin ədibin poeziyasının mahiyyətini dərk və izah etdiyini vurğulayıb.

“Nurəngiz Günün yaradıcılığı Azərbaycan poeziyasının tərkib hissəsidir”, - deyə bildirən məruzəçi təqdim edilən kitabın şairin zəngin yaradıcılığının daha dərindən öyrənilməsi baxımından müfəssəl məlumat-mənbə xarakteri daşıdığını və sanballı bir qaynaq olduğunu söyləyib.

Daha sonra Ədəbiyyat İnstitutunun Ədəbi tənqid şöbəsinin müdiri filologiya elmləri doktoru Vaqif Yusifli “Nurəngiz Gün sənətinin özəllikləri” adlı məruzə ilə çıxış edib. O, “Poeziyamızın ağ çiçəyi Nurəngiz Gün” kitabının ərsəyə gəlməsindən və hazırlanmasından söz açıb, ədibin sənət yolunun özəlliklərinə toxunub.

Tədbirdə, həmçinin filologiya elmləri doktoru Esmira Fuadın “Nurəngiz Gün nəsrində “qırmızı qaranlıq”larla poetik üzləşmələr”, filologiya üzrə fəlsəfə doktoru, dosent Bahar Bərdəlinin “Nurəngiz Günün poetik yaradıcılığı” və filologiya üzrə fəlsəfə doktoru, dosent Nərgiz Cabbarlının “Nurəngiz Gün poeziyasında insan-cəmiyyət və insan-təbiət münasibətlərində harmoniya axtarışı” adlı məruzələri dinlənilib.

Məruzələrdə Nurəngiz Günün əsərlərinin məziyyətlərindən, fəlsəfi şeirlərindən, sənətkarlıq xüsusiyyətlərindən söz açılıb, ədibin əsərləri təhlil olunub. Diqqətə çatdırılıb ki, çoxçəhətli yaradıcılıq fəaliyyətinə malik olan şairə yaradıcılığı, alicənablığı və yüksək mədəniyyəti ilə həmişə insanları özünə cəlb edib.

Sonra Milli Məclisin Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin sədri Hicran Hüseynova, Xalq şairi Vahid Əziz, Xalq yazıçısı Elmira Axundova, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Urud və digərləri çıxış edərək Nurəngiz Günün Azərbaycan ədəbiyyatındakı müstəsna yeri və müstəsna xidmətlərindən danışıb, ona olan böyük sevgi və ehtiramdan bəhs ediblər.

Tədbirdə məktəblilərin ifasında Nurəngiz Günün şeirlərindən nümunələr səsləndirilib.

Sonda çıxış edən şairənin qızı, Milli Məclisin deputatı filologiya elmləri doktoru Jalə Əliyeva anasının xatirəsinə göstərdikləri ehtiram üçün tədbirin təşkilatçılarına və AMEA-nın rəhbərliyinə minnətdarlığını bildirib.

# AMEA Rəyasət Heyətinin iclaslarında Elmi bölmələrin

## AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsi

**AMEA Rəyasət Heyətinin Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin (FRTEB) 2023-cü il üzrə illik hesabatının müzakirəsinə həsr olunmuş iclası keçirilib.**

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, Rəyasət Heyəti aparatının şöbə müdirləri, bölmənin Ümumi yığıncağının üzvləri, bölmənin əhatə etdiyi elmi müəssisələrin baş və icraçı direktorları, elmi katibləri, həmçinin əldə edilmiş mühüm elmi nəticələrin müəllifləri, elmi şöbə və laboratoriyaların rəhbərləri, ictimaiyyətlə əlaqələr, təhsil, beynəlxalq əlaqələr və digər şöbələrin müdirləri, Gənc Alim və Mütəxəssislər şuralarının sədrləri və aidiyyəti şəxslər iştirak ediblər.

Əvvəlcə bölmənin əhatə etdiyi elmi müəssisələrdə süni intellektin tətbiqi əsasında həyata keçirilən innovativ layihələr, eləcə də 2023-cü il üzrə əldə olunan nailiyyətləri, nəşr olunan elmi əsər və kitabları əks etdirən sərgiyə baxış olub.

İclası giriş sözü ilə **AMEA-nın prezidenti akademik İsa Həbibbəyli** açaraq tədbirin gündəliyi barədə məlumat verib.

Akademik İsa Həbibbəyli bildirib ki, ölkə başçısının 3 noyabr 2023-cü il tarixli Fərmanı ilə təsdiqlənmiş Azərbaycan Milli Elmlər Akademiyasının yeni Nizamnaməsində AMEA-nın funksiyaları müəyyənləşdirilib, o cümlədən bölmələrin əhatə etdiyi müəssisələrin AMEA-nın Rəyasət Heyəti qarşısında hesabat verməsi kimi məsələlərin öz əksini tapdığını bildirib.

Bölmələrin illik hesabatlarının bu ildən etibarən ilk dəfə olaraq AMEA Rəyasət Heyətinin binasının Böyük akt zalında geniş tərkibdə keçirildiyini deyən akademik İsa Həbibbəyli bu addımın əldə olunmuş nəticələrin daha böyük auditoriyaya çatdırılmasına, bölmələrin əməkdaşları arasında elmi əlaqələrin genişlənməsinə və gələcək fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsinə təkan verəcəyini söyləyib.

Sonra **AMEA-nın vitse-prezidenti, AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin Elmi şurasının sədri akademik Rasim Əliquliyev**



FRTEB-in 2023-cü il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat məruzəsini təqdim edib. O qeyd edib ki, hesabat ilində FRTEB-də həm fundamental, həm də tətbiqi xarakterli aparılan tədqiqatlar bir tərəfdən ölkənin milli maraqlarından irəli gələn, digər tərəfdən isə müasir dünyanın tələb və çağırışlarına müvafiq olan məsələləri ehtiva edib. Akademik vurğulayıb ki, 2023-cü ildə bir sıra strateji məsələlərə, o cümlədən elmi priroritetlərin müəyyənləşdirilməsi, əldə olunan mühüm nəticələrin nüfuzlu elmi bazalara daxil olan jurnallarda dərc olunması, elmi təşkilatların və tədqiqatçıların elmmetrik göstəricilərinin yüksəldilməsi, elm və təhsilin inteqrasiyasının gücləndirilməsi, ali məktəblər və elmi-tədqiqat müəssisələri arasında münasibətlərin qurulması, birgə tədqiqatların həyata keçirilməsi kimi məsələlərə xüsusi diqqət ayrılmışdır.

Akademik Rasim Əliquliyev diqqətə çatdırıb ki, 2023-cü ildə Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin əhatə etdiyi elmi müəssisələrdə 7 elmi istiqamət üzrə 35 problemə aid 125 mövzuya dair 286 tədqiqat işi, 224 mərhələ aparılıb, 4 mövzu, 108 iş, 81 mərhələ tamamlanıb və bu tədqiqatlardan 50-si bölmə tərəfindən müzakirə edilərək mühüm nəticə kimi dəyərləndirilib.

Bölmənin əhatə etdiyi elmi müəssisələrin nəşr fəaliyyəti barədə məlumat verən akademik Rasim Əliquliyev bildirib ki, 2023-cü ildə bölmə əməkdaşlarının 12 monoqrafiyası, 23 kitabı (11-i xaricdə), 33 dərslik, dərs vəsaiti və elmi-kütləvi nəşri, 1108 məqaləsi (567 nüfuzlu xarici elmi jurnallarda) çap edilib, bu məqalələrin 514-ü "Web of Science" və "Scopus" bazalarına daxil olan impakt faktorlu jurnallarda və konfrans materiallarında dərc olunub, əməkdaşların əsərlərinə 19022 istinad qeydə alınıb. Həmçinin bölmə üzrə elmi müəssisələrin patent almaq üçün 14 iddia sənədi verdiyini, 2-si respublikada, 10-u xarici ölkələrdə olmaqla 12 patentin alındığını diqqətə çatdırıb.

Məruzəçi "Heydər Əliyev İli" çərçivəsində FRTEB-in əhatə etdiyi elmi müəssisələrdə Ümummilli Liderin 100 illiyinə həsr olunmuş 5 respublika, 2 beynəlxalq konfransın, 4 elmi sessiyanın, bütövlükdə 20 tədbirin təşkil olunduğunu, alim və mütəxəssislər tərəfindən 1 monoqrafiya, 3 konfrans materialı və 20-yə yaxın məqalənin nəşr edildiyini bildirib.

"Hesabat dövründə E-Azərbaycanın bir seqmenti olan e-elmin formalaşdırılması və inkişafı istiqamətində işlər davam etdirilmiş, İndustry 4.0-ın platformasında kritik infrastrukturların kiber dayanıqlığının təmin olunması üçün intellektual texnologiyaların işlənməsi istiqamətində araşdırmalar aparılmış, science 4.0 platformasında süni intellektin tətbiqi məsələləri tədqiq olunmuş və perspektiv istiqamətlərin reallaşdırılması üçün tövsiyələr verilmişdir. Eyni zamanda IV Sənaye İnqilabının çağırışlarının həyata keçirilməsi, Süni intellekt, Big Data texnologiyalarının və kiberfiziki sistemlərin elmi-nəzəri problemlərinin araşdırılması və geniş tətbiqinə xüsusi diqqət yetirilmişdir", - deyə AMEA-nın vitse-prezidenti vurğulayıb.

Akademik Rasim Əliquliyev hesabat ilində bölmənin əhatə etdiyi elmi müəssisələrin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Azərbaycan Respublikasının işğaldan azad



edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı", "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası" və digər dövlət proqramları, strategiya, yol xəritələri, fəaliyyət planlarının həyata keçirilməsində iştirak etdiklərini bildirib.

O, həmçinin müxtəlif parametrlər üzrə bölmə əməkdaşlarının elmmetrik göstəricilərini təqdim edib, kadr potensialı və kadr hazırlığı, elm və təhsilin inteqrasiyasının gücləndirilməsi, elmin populyarlaşdırılması istiqamətində atılan addımlar və bölmənin elmi jurnalları barədə məlumatları diqqətə çatdırıb.

Məruzə dinlənildikdən sonra Fizika İnstitutunun laboratoriya rəhbərləri **AMEA-nın müxbir üzvü Vəli Hüseynov** və **professor Qüdrət İsaqovun** sualları cavablandırılıb.

Sonra Riyaziyyat və Mexanika İnstitutunun baş direktoru **AMEA-nın müxbir üzvü Misir Mərdanov,** İdarəetmə Sistemləri İnstitutunun baş direktoru **akademik Əli Abbasov,** Milli Aviasiya Akademiyasının (MAA) elmi işlər üzrə prorektoru **AMEA-nın müxbir üzvü Afiq Həsənov,** Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının icraçı direktoru **professor Nəriman İsmayılov,** Biofizika İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri **Mətanət Baxışova,** Radiasiya Problemləri İnstitutunun laboratoriya rəhbəri **fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Famil Hümbətov** və Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun elmi işlər üzrə direktor müavini **AMEA-nın müxbir üzvü Vaqif Quliyev** çıxış edərək təmsil etdikləri qurumlarda əldə olunan mühüm nəticələri diqqətə çatdırıb, bölmənin 2023-cü ildəki fəaliyyətini yüksək qiymətləndiriblər.

Daha sonra çıxış edən akademik İsa Həbibbəyli Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin 2023-cü il üzrə fəaliyyətini yüksək qiymətləndirib, bölmənin əhatə etdiyi müəssisələrdə Azərbaycan dövlətinin çağırışlarına cavab verən mühüm tədqiqatların aparıldığını bildirib. Həmçinin "Yaşıl dünya naminə həmrəylik ili" və Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un bölmə alimlərinin fəaliyyət istiqamətlərini əhatə etdiyini və onların üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb.

Müzakirələrdən sonra AMEA-nın Rəyasət Heyətinin qərarı ilə Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin 2023-cü il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatı məqbul hesab edilib, əldə olunmuş mühüm nəticələrin AMEA-nın illik hesabatına daxil edilməsi qərara alınıb və bölməyə müvafiq tapşırıqlar verilib.

## AMEA-nın Kimya Elmləri Bölməsi

**AMEA Rəyasət Heyətinin Kimya Elmləri Bölməsinin (KEB) 2023-cü il üzrə illik hesabatının müzakirəsinə həsr olunmuş iclası keçirilib.**

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, Rəyasət Heyəti aparatının şöbə müdirləri, bölmənin Ümumi yığıncağının üzvləri, bölmənin əhatə etdiyi elmi müəssisələrin baş və icraçı direktorları, elmi katibləri, həmçinin əldə edilmiş mühüm elmi nəticələrin müəllifləri, elmi şöbə və laboratoriyaların rəhbərləri, ictimaiyyətlə əlaqələr, təhsil, beynəlxalq əlaqələr və digər şöbələrin müdirləri, Gənc Alim və Mütəxəssislər şuralarının sədrləri və aidiyyəti şəxslər iştirak ediblər.

Əvvəlcə bölmənin əhatə etdiyi elmi müəssisələrdə 2023-cü il üzrə əldə olunan nailiyyətləri, nəşr olunan elmi əsər və kitabları əks etdirən sərgiyə baxış olub.

İclası giriş sözü ilə **AMEA-nın prezidenti akademik İsa Həbibbəyli** açaraq tədbirin gündəliyi barədə məlumat verib.

Ölkə başçısının "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanından sonra Azərbaycan elminin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu deyən akademik İsa Həbibbəyli bu gün AMEA-da dövlət başçısının çağırışlarına və müasir dünya elminin prioritet istiqamətlərinə uyğun tədqiqatların aparıldığını bildirib.

Bu il bölmələrin hesabatlarının fərqli formatda və daha böyük auditoriyada geniş ictimaiyyətə təqdim olunduğunu vurğulayan akademik İsa Həbibbəyli müzakirələr zamanı səsləndirilən təkliflərin elmimizin inkişafına öz töhfəsini verdiyini və onun populyarlaşdırılmasında bir növ maarifləndirmə funksiyası daşıdığını söyləyib.




Sonra **AMEA-nın vitse-prezidenti, AMEA-nın Kimya Elmləri Bölməsinin Elmi şurasının sədri akademik Dilqəm Tağıyev** KEB-in 2023-cü il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat məruzəsini təqdim edib.

Məruzəçi qeyd edib ki, institutlar hesabat ilində öz fəaliyyətlərində "Azərbaycan 2030: sosial-iqtisadi inkişafına dair Milli Prioritetlər"ini, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nı, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı"nı və "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" ölkə başçısının Sərəncamını rəhbər tutub və elmi tədqiqat işləri AMEA tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasında 2021-2025-ci illərdə aparılacaq elmi-tədqiqat işlərinin prioritet istiqamətləri"nə uyğun aparılıb.

Akademik Dilqəm Tağıyev diqqətə çatdırıb ki, 2023-cü ildə Kimya Elmləri Bölməsinin əhatə etdiyi elmi müəssisələrdə 12 problemə aid 41 mövzuya dair 124 tədqiqat işi, 162 mərhələ aparılıb, 2 mövzu, 64 iş, 59 mərhələ tamamlanıb və bu tədqiqatlardan 10-u tətbiq olunub.

Bölmənin əhatə etdiyi elmi müəssisələrin nəşr fəaliyyəti barədə məlumat verən akademik Dilqəm Tağıyev bildirib ki, 2023-cü ildə bölmə əməkdaşlarının 6 kitabı (1-i xaricdə), 11 monoqrafiyası (3-ü xaricdə), 407 məqaləsi (224-ü xaricdə), 821 tezisi (264-ü xaricdə), 5 dərslik, dərs vəsaiti və elmi-kütləvi nəşri çap edilib, bu məqalələrdən 236-sı "Web of Science" və "Scopus" bazalarına daxil olan impakt faktorlu jurnallarda dərc olunub, əməkdaşların əsərlərinə 4900 istinad qeydə alınıb. Həmçinin bölmə üzrə elmi müəssisələrin patent almaq üçün 48 iddia sənədi verdiyini, 61 patentin ekspertizada olduğunu, respublikada 40 patentin alındığını diqqətə çatdırıb.

Bundan əlavə, bölmə əməkdaşları tərəfindən Azərbaycanın yeni yataq və yeni quyu neftlərinin komponent tərkibi və xassələrinin təyini, emal texnologiyaları üçün tövsiyələrin verilməsi, "Yaşıl oksidləşdiricilər" vasitəsilə oksidləşmə reaksiyalarının effektivliyini yüksəltmək üçün biomimetik və nanokarbon katalizatorlarının yaradılması və innovativ texnologiyaların işlənilməsi, Xüsusi təyinatlı itiyerişli yerüstü texnikanın turboüfürmə ilə yüksək gücləndirilmiş dizel mühərriklərinin bütün mövsümlərdə istismarını təmin edən yeni motor yağının yaradılması, Yüksək istismar, deformasiya, möhkəmlik, termiki və bakterisid xassələrə malik sinktərkibli nanokompozitlərin alınması kimi və s. mühüm nəticələrin əldə edildiyini bildirib, həmçinin işğaldan azad edilmiş ərazilərdə aparılan tədqiqat işləri barədə məlumat verib.

"Heydər Əliyev İli" çərçivəsində bölmənin müəssisələrində keçirilən tədbirləri diqqətə çatdıran akademik Dilqəm Tağıyev 35 yaşa qədər fəlsəfə doktorlu-



ğu hazırılığı üzrə doktorant və dissertantlar arasında "Heydər Əliyev təqaüdü"nün təsis olunduğunu, "Ən yaxşı elmi məruzə" müsabiqəsi və bir sıra konfransların keçirildiyini, "Ulu Öndər Heydər Əliyevin neft və neft emalı strategiyası" və digər nəşrlərin çap edildiyini bildirib.

Eyni zamanda məruzəçi beynəlxalq SCİMAGO tədqiqat mərkəzi tərəfindən dünyanın 233 ölkəsinin bütövlükdə və ayrı-ayrı elm sahələri üzrə 2022-ci ilin bibliometrik nəticələrinə görə reytinq cədvəlini tərtib etdiyini, ictimai elmlər, kimya, riyaziyyat, Yer elmləri və kompüter elmləri sahəsində Azərbaycanın Cənubi Qafqazda 1-ci yerdə qərarlaşdığını vurğulayıb.

O, həmçinin bölmə əməkdaşlarının elmmetrik göstəricilərini təqdim edib, kadr potensialı və kadr hazırlığı, elm və təhsilin inteqrasiyasının gücləndirilməsi, elmin populyarlaşdırılması istiqamətində atılan addımlar, bölmənin elmi jurnalları, beynəlxalq əməkdaşlıq və təltiflər barədə məlumatları diqqətə çatdırıb.

Sonra Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru **akademik Vaqif Abbasov,** Aşqarlar Kimyası İnstitutunun baş direktoru **akademik Vaqif Fərzəliyev,** Bakı Dövlət Universitetinin kafedra müdiri **akademik Abel Məhərrəmov,** Polimer Materialları İnstitutunun baş direktoru **AMEA-nın müxbir üzvü Bəxtiyar Məmmədov,** ETN Yüksək Texnologiyalar Parkının baş direktoru **iqtisad üzrə fəlsəfə doktoru Vasif Abbasov** və AMEA-nın Gənc Alim və Mütəxəssislər Şurasının sədri **kimya üzrə fəlsəfə doktoru Elmir Babayev** çıxış edərək təmsil etdikləri qurumlarda əldə olunan mühüm nəticələri diqqətə çatdırıb, bölmənin 2023-cü ildəki fəaliyyətini yüksək qiymətləndiriblər.

Daha sonra çıxış edən akademik İsa Həbibbəyli Kimya Elmləri Bölməsinin 2023-cü il üzrə fəaliyyətini yüksək qiymətləndirib, göstəricilərin ötən illə müqayisədə yüksək olduğunu, bölmənin əhatə etdiyi müəssisələrdə Azərbaycanın müdafiə qüdrətinin artırılmasına və dövlətimizin inkişafına cavab verən önəmli tədqiqatların aparıldığını bildirib, bu istiqamətdə əməli fəaliyyətin bundan sonra da davam etdirilməsi barədə müvafiq tövsiyələrini verib.

Müzakirələrdən sonra AMEA-nın Rəyasət Heyətinin qərarı ilə Kimya Elmləri Bölməsinin 2023-cü il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatı məqbul hesab edilib, əldə olunmuş mühüm nəticələrin AMEA-nın illik hesabatına daxil edilməsi qərara alınıb və bölməyə müvafiq tapşırıqlar verilib.

# 2023-cü il üzrə hesabatları təqdim olunub

## *AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsi və Lənkəran Regional Elmi Mərkəzi*





**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətinin AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin (BTEB) və Lənkəran Regional Elmi Mərkəzinin (LREM) 2023-cü il üzrə illik hesabatına həsr olunmuş iclası keçirilib.**

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov, eləcə də Səhiyyə, Kənd Təsərrüfatı, Elm və Təhsil nazirliklərinin nümayəndələri, bir sıra tibbi müəssisələrin direktorları, aidiyyəti şəxslər və KİV nümayəndələri iştirak ediblər.

Əvvəlcə AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin əhatə etdiyi institutlarda, həmçinin ali təhsil və tibb müəssisələrində 2023-cü ildə əldə olunan mühüm elmi nəticələri əks etdirən sərgiyə baxış keçirilib.

Tədbiri **AMEA-nın prezidenti akademik İsa Həbibbəyli** açaraq iclasın gündəliyi barədə məlumat verib. Alim AMEA-da həyata keçirilən islahatlar barədə danışaraq müasir elmin çağırışlarına müvafiq olaraq aparılan tədqiqatların, qazanılan yeni elmi nailiyyətlərin müstəqillik dövrü Azərbaycan elminin uğurları olduğunu söyləyib.

Akademik İsa Həbibbəyli AMEA-da müstəqil Azərbaycan dövlətinin çağırışlarına müvafiq olaraq, yeni elmi nəslin yetişdirilməsinin əhəmiyyətini qeyd edib, bu istiqamətdə fəaliyyətin gücləndirilməsinin önəmini vurğulayıb. O, həmçinin tədbirdə yeni ensiklopediya və tibbi lüğətlərin tərtib olunması ilə bağlı tövsiyələrini səsləndirib. AMEA rəhbəri gələcəkdə BTEB-in hesabatlarına sahibkarların da dəvət olunmasının elmin kommersiyalaşması baxımından mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

AMEA prezidenti görkəmli dövlət xadimi, Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə ötən ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunması və tibb elminin inkişafında müstəsna xidmətləri olan akademik Zərifə Əliyevanın 100 illiyi ilə əlaqədar BTEB-ə daxil olan institut və təşkilatlarda, o cümlədən digər tibb müəssisələrində keçirilmiş tədbirlər, konfrans və simpoziumlardan bəhs edib, bölməyə daxil olan elmi müəssisələrdə bu münasibətlə çoxsaylı elmi nəşrlərin işıq üzü gördüyünü vurğulayıb.

Akademik İsa Həbibbəyli Vətən müharibəsində qazanılmış Zəfərin ardınca Qarabağa və ətraf bölgələrə yenidən qayıdışın bu gün ölkəmiz üçün mühüm ictimai-siyasi və iqtisadi əhəmiyyətə malik olan bir prosesə çevrildiyini bildirib. O, Prezident İlham Əliyevin elan etdiyi Böyük Qayıdışın Azərbaycanın xəritəsinin Vətən müharibəsindəki Zəfərdən sonrakı tam mənzərəsinin yaradılmasına, regionda və onun ətrafında yeni nəqliyyat - logistika qovşaqlarının formalaşdırılmasına və iqtisadi-mədəni inkişafın təmin edilməsinə geniş üfüqlər açan dövlət əhəmiyyətli proqram olduğunu deyib. Alim BTEB-ə daxil olan institut və təşkilatlarda Böyük Qayıdışla bağlı fəaliyyətin daha da intensivləşdirilməsinin, yeni elmi istiqamətlərin müəyyənləşdirilməsinin vacibliyindən danışıb, ölkə üzrə elmi müəssisələrin fəaliyyətini müzakirə etmək, elmin qarşısında qoyulan vəzifələri müəyyən etmək baxımından bölmələrin üzərində böyük məsuliyyət düşdüyünü diqqətə çatdırıb.

AMEA rəhbəri 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunduğunu qeyd edərək, Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikasının yaşıl enerji zonası elan olunduğunu xatırladıb. O, bu gün alimlərimizin həmin bölgələrdə müxtəlif tədqiqatlar apardıqlarını, dövlətimizin quruculuq işlərinə töhfələr verdiklərini söyləyib. Akademik İsa Həbibbəyli BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər tədbirin də 2024-cü ildə ölkəmizdə keçirilməsinin mühüm əhəmiyyət daşıdığını bildirib.

Sonra **AMEA-nın vitse-prezidenti Biologiya və Tibb Elmləri Bölməsinin Elmi şurasının sədri akademik İradə Hüseynova** bölmənin 2023-cü il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatını təqdim edib.

Akademik İradə Hüseynova bildirib ki, hesabat ilində ölkə başçısının Fərman və sərəncamları, Nazirlər Kabinetinin qərar və sərəncamları, "Azərbaycan Respublikası Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"nin, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin olunmasına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı", "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" və s., eləcə də "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", Azərbaycan Respublikası "Qırmızı kitab"ının III nəşrinin hazırlanması və çapı, AMEA-nın Ümumi yığıncağı və Rəyasət Heyətinin qərarları ilə verilmiş tapşırıqlar çərçivəsində tədqiqatlar aparılıb, o cümlədən "Heydər Əliyev İli" və akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi ilə bağlı mühüm işlər həyata keçirilib.

Həmçinin bölmənin institutlarında və AMEA-nın Lənkəran Regional Elmi Mərkəzində, AR Elm və Təhsil, Səhiyyə və Kənd Təsərrüfatı nazirliklərinin tədqiqat və təhsil müəssisələrində, TƏBİB-in tədqiqat müəssisələrində, ali təhsil ocaqlarının müvafiq kafedralarında yerinə yetirilən tədqiqatların əlaqələndirilməsi həyata keçirilib.

Vitse-prezident diqqətə çatdırıb ki, bölmə və institutlar işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi Qrupunun, eləcə də digər işçi qruplarının işində, müvafiq fəaliyyət proqramlarının icrasında, region üzrə bioloji və radioekoloji monitorinqlərin aparılmasında, Ermənistanın Qarabağda törətdiyi ekoloji terrorun miqyasının qiymətləndirilməsində fəal şəkildə iştirak ediblər. Belə ki, işğaldan azad edilmiş ərazilərdə BTEB-in əhatə etdiyi institutlar tərəfindən çoxsaylı ekspedisiyalar həyata keçirilib, nadir və itmək təhlükəsində olan bitki və heyvan növlərinin, torpaq və su ehtiyatlarının, içməli su mənbələrinin, meşə və digər ekosistemlərin monitorinqləri aparılıb. Xüsusən Oxçuçay və Bəsitçayın monitorinqləri üzrə fəaliyyətlər, ekspedisiyalar və nümunələrin analizi prosesi 4 institutun əməkdaşlarından ibarət işçi qrupları tərəfindən davam etdirilib.





Azərbaycan Respublikasının "Qırmızı kitab"ının III nəşrinin hazırlanması ilə bağlı görülmüş işləri diqqətə çatdıran akademik İradə Hüseynova hesabat dövründə Qarabağ regionundan "Qırmızı Kitabın III nəşrinə daxil edilən növlərin monitorinqləri ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə intensiv fəaliyyətlərin həyata keçirildiyini deyib. Bildirib ki, qəbul olunan və həyata keçirilən qərarlar, çoxsaylı tədbirlər, məqsədyönlü şəkildə görülən işlər, aparılan ekspedisiya və kameral tədqiqatlar, bütünlükdə prosesə rəhbərliyin yüksək diqqəti və nəzarəti öz müsbət nəticələrini vermiş, "Qırmızı Kitab"ın III nəşri nəfis şəkildə çapdan çıxmışdır. O, yaradıcı kollektivin Ulu Öndərin şanlı yubileyinə dəyərli töhfəsi olan nəşrə nadir və itmək təhlükəsində olan 241 fauna növü (152 onurğalı, 89 onurğasız, 39 məməli, 78 quş, 18 sürünən, 11 balıq, 7 növ su onurğasızları, 82 həşərat, 6 amfibi növü) və 460 flora növü (423 bitki: 383 ali, 15 ali sporlu, 6 mamır, 14 şibyə, 5 yosun, 37 göbələk) daxil edildiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, hesabat ilində Xəzər dənizinin Azərbaycan sektorunun və ətraf ekosistemlərin tədqiqi, dənizin bioloji resurslarının öyrənilməsi üzrə fəaliyyətlər davam etdirilib, bu məqsədlə AMEA ilə AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasındakı mövcud Anlaşma Memorandumu çərçivəsində müvafiq işlər görülüb.

Ötən il biologiya, aqrar və tibb elmləri üzrə tədqiqatlar əsasən, biomüxtəlifliyin, torpaq və su ehtiyatlarının müasir yanaşmalarla tədqiqi, bərpası, mühafizəsi və səmərəli istifadəsi, elektron məlumat bazaları və xəritələrinin yaradılması, bioloji proseslərin molekulyar-genetik və fiziki-kimyəvi əsasları, genom, proteom və metabolom tədqiqatları, o cümlədən yeni bio-, nano- və postgenom texnologiyalarının fundamental və tətbiqi əsaslarının işlənib hazırlanması, kompüter biologiyası, maşınöyrənmə üsullarının, süni intellektin biologiya və təbabətdə tətbiqi, həmçinin patologiyaların fizioloji və molekulyar-genetik əsaslarının tədqiqi, yeni diaqnostika və müalicə üsullarının, dərman preparatlarının işlənib hazırlanması, reproduktiv təbabətdə yüksək texnologiyaların və kök hüceyrələrinin tətbiqi istiqamətləri üzrə aparılıb.

Məruzəçi bildirib ki, qeyd olunan istiqamətlərdə hesabat ilində 21 problem, 78 mövzu, 234 iş, 489 mərhələ üzrə tədqiqatlar aparılıb, 1 mövzu, 104 iş və 362 mərhələ tamamlanıb. Tibb müəssisələrində 32 problem, 144 mövzu (19-u tamamlanıb) və 301 işi (40-ı tamamlanıb) əhatə edən 479 (88-i tamamlanıb) mərhələ üzrə tədqiqatlar həyata keçirilib. Hesabat ilində bölmənin institutları tərəfindən 1-i xaricdən olmaqla 8, aqrar tədqiqat və təhsil müəssisələrində isə 24 yerli, 4 xarici patent əldə edilib.

Bölmə alimləri tərəfindən nəşr olunmuş elmi əsərləri diqqətə çatdıran akademik İradə Hüseynova qeyd edib ki, hesabat dövründə bölmə institutları tərəfindən 1244 elmi əsər, o cümlədən 10 kitab (3-ü xaricdə), 15 monoqrafiya (2-si xaricdə), 511 məqalə (293-ü xaricdə, onlardan 228-i impakt faktorlu jurnallarda, 91-i "Web of Science" və "Scopus" bazalarında), 708 tezis (154-ü xaricdə) nəşr olunub. Əməkdaşların əsərlərinə 3288 istinad edilib. Bölmədənkənar tibb yönümlü müəssisələr tərəfindən 1233 elmi əsər, o cümlədən 5 kitab (2-si xaricdə), 28 monoqrafiya (1-i xaricdə), 1383 məqalə (549-u xaricdə, onlardan 196-sı "Web of Science" və "Scopus" bazalarından olan jurnallarda), 2193 tezis (495-i xaricdə) nəşr olunub, elmi əsərlərə 783 istinad edilib.

Vitse-prezident, həmçinin hazırda bölmənin 16 gənc mütəxəssisinin tanınmış xarici universitetlərdə doktorantura təhsili aldığını söyləyib.

Bundan başqa, hesabatda elmlə təhsilin inteqrasiyası, beynəlxalq əlaqələr, kadr hazırlığı, müəssisələrdə fəaliyyət göstərən beynəlxalq laboratoriyalar, elektron elmin vəziyyəti, keçirilmiş konfranslar, seminarlar və yubileylər, təltiflər və s. barədə məlumat verilib.

Hesabat dinlənildikdən sonra məruzə ətrafında **ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov,** Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini **AMEA-nın müxbir üzvü Əminağa Sadıqov,** Torpaqşünaslıq və Aqrokimya İnstitutunun baş direktoru **AMEA-nın müxbir üzvü Əlövsət Quliyev,** BDU-nun kafedra müdiri **AMEA-nın müxbir üzvü Elşad Qurbanov,** Genetik Ehtiyatlar İnstitutunun baş direktoru **AMEA-nın müxbir üzvü Zeynal Əkpərov,** Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnnovasiya Mərkəzinin Əkinçilik Elmi-Tədqiqat İnstitutunun direktoru **Faiq Xudayev,** eləcə də Aqrar Tədqiqatlar Mərkəzinin direktoru **Firdovsi Fikrətzadə** çıxış edərək fikir və təkliflərini səsləndiriblər. Həmçinin AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun əməkdaşı, hazırda Böyük Britaniyanın Oksford Universitetinin doktorantı olan **Gülnar Abdullayeva** tədbirə onlayn qoşularaq xərçəng hüceyrələri ilə bağlı apardığı tədqiqatlar haqqında məlumat verib.

Daha sonra **Lənkəran Regional Elmi Mərkəzinin direktoru filologiya üzrə fəlsəfə doktoru Mehman Əliyev** Mərkəzin 2023-cü ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatını təqdim edib. O, ötən il Lənkəran Regional Elmi Mərkəzində altı mərhələdə üç problemi əhatə edən altı mövzu üzrə altı işin yerinə yetirildiyi, iki mövzu üzrə iki işin altı mərhələdə başa çatdırıldığını söyləyib.

Mehman Əliyev qeyd edib ki, aparılan elmi-tədqiqat işləri Azərbaycanın cənub-şərq regionunda yaşayan ədiblərin yaradıcılığının öyrənilməsi, folklor, etnoqrafik, arxeoloji və numizmatik abidələrin aşkarlanması, onların xəritələrinin tərtibi, numizmatik materialların elmi dövriyyəyə daxil edilməsi və kataloqlaşdırılması, eləcə də Lənkəran-Astara bölgəsi şəraitində çay, sitrus və subtropik bitkilərin mövcud sort və formalarının toplanması, morfoloji və bioloji təsərrüfat xüsusiyyətlərinin öyrənilməsi, Cənub regionunda uzunömürlüyün populyativ, sosial-bioloji xüsusiyyətlərinin ekoloji və genetik faktorlarının, həyat tərzinin, yaşla bağlı patoloji dəyişikliklərin intensivliyinin, sosial statusun, ailə-məişət ənənələrinin, tibbi nəzarətin uzunömürlülük fenomeninə təsirinin tədqiqi və s. məsələlərə həsr olunub.

Diqqətə çatdırılıb ki, Lənkəran Regional Elmi Mərkəzində rayonlaşdırılmış Fərmançay, Lənkəran, Xəzər və Fərmançay Çəhrayı, Azərbaycan-2 çay sortlarından 2023-cü ildə istehsal olunmuş quru çay (yarımfabrikat) məhsulunun biokimyəvi əlamətləri öyrənilmişdir. Bundan başqa, hesabat ilində Mərkəzin təcrübə bazasında şeddok - Citrus grandis, sitron - Citrus medica, iri pompelmus - Citrus maxima, dekorativ naringi və s. sitrus bitkilərinin introduksiyası aparılmış, quayava bitkisinin bölgənin torpaq-iqlim şəraitinə adaptasiyası öyrənilmişdir.

Direktor "Heydər Əliyev İli" çərçivəsində Mərkəzdə görülən işləri, keçirilən tədbirləri də diqqətə çatdırıb.

Daha sonra çıxış edən akademik İsa Həbibbəyli bölmədə aparılan tədqiqatları, müəyyənləşdirilmiş yeni elmi istiqamətləri, yaxın profilli müəssisələrin birgə fəaliyyətini, gənc mütəxəssislərin xaricdə doktorantura təhsili almasını, yeni elmi nəslin yetişdirilməsi istiqamətində görülən işləri, impakt faktorlu jurnallarda çıxan məqalələrin sayının artmasını, işğaldan azad olunmuş ərazilərdə yerinə yetirilən elmi işləri yüksək qiymətləndirib.

Sonda Rəyasət Heyətinin qərarı ilə Biologiya və Tibb Elmləri Bölməsinin və Lənkəran Regional Elmi Mərkəzinin 2023-cü ildəki fəaliyyəti qənaətbəxş hesab edilib.

*Akademik Rasim Əliquliyev:*

# "Ölkəmizdə yaşıl siyasətin formalaşdırılması istiqamətində əhəmiyyətli işlər görülür"

**AMEA-nın vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmasına dair mövqeyini bildirib, bu il çərçivəsində AMEA qarşısında qoyulmuş vəzifələrdən, icra olunacaq tədbirlərdən danışıb.**




Akademik Rasim Əliquliyev 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmasını ölkəmiz üçün əlamətdar hadisə kimi qiymətləndirərək Prezident İlham Əliyevin öz çıxışlarında hər zaman bu məsələlərə böyük diqqət ayırdığını, Azərbaycanın 2030-cu ilə qədər müəyyən edilmiş milli sosial-iqtisadi inkişafa dair prioritetləri sırasında yaşıl cəmiyyətin formalaşdırılması, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi kimi məsələlərin yer aldığını və bununla bağlı müvafiq qurumlar qarşısında mühüm vəzifələrin qoyulduğunu vurğulayıb.

AMEA-nın vitse-prezidenti hazırda bütün dünyada enerji təhlükəsizliyi məsələlərinə böyük önəm verildiyini qeyd edərək ölkəmizdə də, xüsusən, 2-ci Qarabağ müharibəsindən sonra bu istiqamətdə işlərin sürətləndirildiyini diqqətə çatdırıb. Alimin sözlərinə görə, IV sənaye inqilabının gətirdiyi yeniliklər kontekstində süni intellekt texnologiyalarının ölkəmizdə geniş tətbiq olunması ilə iqtisadiyyatın şaxələnməsi, ənənəvi iqtisadi sferalardan fərqli olaraq, yeni iqtisadi sahələrin meydana gəlməsi, enerji istehsalı, enerji təhlükəsizliyinin yenidən qurulması istiqamətdə mühüm addımlar atılır. Akademik Rasim Əliquliyev əlavə edib ki, artıq ölkəmizin bir çox yerlərində neftə, qaza əsaslanan enerji istehsalına deyil, alternativ enerji mənbələrindən istifadəyə, günəş, külək və su elektrik stansiyalarının sayının artırılmasına üstünlük verilir.

"Alternativ enerji mənbələrindən istifadə ölkəmizdə yaşıl siyasətin formalaşması istiqamətində atılan mühüm addımlardan biridir", - deyə akademik Rasim Əliquliyev vurğulayıb. O, bildirib ki, iqlim dəyişiklikləri üzrə dünyanın mötəbər tədbirlərindən biri hesab olunan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası (COP28) ötən il dekabr ayının 1-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilmiş, bu tədbirdə 2024-cü ildə COP29-un Azərbaycanda keçirilməsi yekdilliklə qərara alınmışdır. AMEA-nın vitse-prezident bu qərarın dünya ölkələrinin Azərbaycan dövlətinə və xalqına, dövlət başçısının siyasətinə olan etimadının göstəricisi olduğunu qeyd edib. Vurğulayıb ki, Azərbaycan beynəlxalq ictimaiyyətin etibarlı tərəfdaşı kimi qlobal problemlərin həllində daim aktiv rol oynayır, o cümlədən iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir.

Bu kimi mötəbər konfransın ölkəmizdə keçirilməsinin, həmçinin "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının müvafiq qurumlar qarşısında mühüm vəzifələr qoyduğunu söyləyən akademik Rasim Əliquliyev aidiyyəti dövlət qurumlarında, o cümlədən AMEA-da bununla bağlı Tədbirlər Planının hazırlanması istiqamətində işlərin görüldüyünü, Azərbaycan alimlərinin bu prosesdə yaxından iştirak edəcəklərini diqqətə çatdırıb.

Akademik Rasim Əliquliyev Elm və Təhsil Nazirliyinin, həmçinin digər qurumların elm və ali təhsil müəssisələrində uzun müddətdir ki, yaşıl cəmiyyətin qurulması, alternativ en erji mənbələrinin müəyyənləşdirilməsi, istehsal edilməsi, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun, bütövlükdə, bütün ölkə ərazisində radiasiya təhlükəsizliyinin təmin olunması istiqamətində tədqiqatların aparıldığını qeyd edərək yaşıl siyasətə aid olan ayrı-ayrı təhlükələrlə mübarizə aparılmasının hər zaman Azərbaycan alimlərinin prioritetləri sırasında olduğunu vurğulayıb.

AMEA-nın vitse-prezidenti müvafiq dövlət qurumları ilə yanaşı, cəmiyyətimizin müxtəlif sektorlarının da ölkəmizdə yaşıl siyasətə dəstək verən rəqəmsal texnologiyalardan istifadə olunması işlərində yaxından iştirak etdiklərini deyib. Qeyd edib ki, ekosistemin tarazlığının təmin olunması və mövcud təhlükələrlə mübarizə aparılması, ənənəvi iqtisadiyyatın yaşıl iqtisadiyyata transformasiya olunması üçün cəmiyyətimizdə yaşıl mədəniyyətin formalaşdırılması, xüsusən, gənclərə bu təfəkkürün aşılanması istiqamətində ardıcıl, sistemli tədbirlərin görülməsi zəruridir.

# Şərqşünaslıq İnstitutuna təşəkkür məktubu ünvanlanıb

**Ötən ilin 20-21 dekabrında AMEA-nın akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunda keçirilən "Qədim və müasir Şərq: mənbələr, tədqiqatlar, perspektivlər" mövzusunda beynəlxalq elmi konfrans tədbir iştirakçılarını, o cümlədən xarici alimləri çox təsirləndirib.**

Şərqşünaslıq İnstitutu ilə sıx elmi əlaqələr quran, Azərbaycan, Şərqşünaslıq İnstitutu, akademik Ziya Bünyadov və konfrans barədə yüksək fikirləri elə akademik Ziya Bünyadovun 100 illiyinə həsr olunmuş konfransın açılışındakı çıxışı zamanı bildirmiş İraq Strateji Araşdırmalar Mərkəzinin direktoru, İraq-Azərbaycan Dostluq Cəmiyyətinin sədri professor Mutaz Muhyi Əbdülhəmid Vətəninə qayıtdıqdan sonra da tədbirin təsiri altında qalmaqdadır. İraqlı alim öz təəssüratlarını və konfransın yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirmək üçün AMEA-nın vitse-prezidenti v.i.e., Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyevaya təşəkkür məktubu ünvanlayıb.




حضرة الاستاذة الدكتورة جوهرة بخشعليفا رئيسة معهد
دراسات الاستشراق في اكاديمية العلوم الوطنية المحترمة

بأسم المركز الجمهوري للدراسات الاستراتيجية في بغداد ، اقدم شكري وامتناني لكم ،ولجهودكم المتميزة التي اثمرت على استظافتنا في المؤتمر الدولي للمستشرق العظيم ضياء بونيادوف، الذي كان من المؤتمرات العلمية الناجحة والمتميزة التي اشاد بها الجميع ، ولولا دوركم الفعال فية لما نجح هذا المؤتمر ، وكما تعرفين للنجاح أناس يقدّرون معناه، وللإبداع أناس يحصدونه، لذا نقدّر جهودك المضنية، فأنتِ أهل للشكر والتقدير، فوجب علينا تقديرك، فلك منا كلّ الثناء والتقدير.

وفي الختام ... جهودكم المبذولة دليلٌ واضحٌ على نهجكم العلميّ المتميّز والتزامكم الصادق والمعهود تجاهَ واجباتكم وإنجاز مهامكم، وأنا ممتنٌ جدًا لكم وأفتخرُ بعطائكم أمامَ الجميع. ومن اللهِ التوفيق والسداد .

الاستاذ الدكتور معتز محي عبد الحميد
مدير المركز الجمهوري للدراسات الاستراتيجية
بغداد – جمهورية العراق

Bağdad şəhərində yerləşən İraq Respublika Strateji Araşdırmalar Mərkəzinin adından görkəmli şərqşünas alim akademik Ziya Bünyadovun 100 illik yubileyi münasibəti ilə təşkil edilən beynəlxalq konfransa dəvətə görə dərin minnətdarlığını çatdıran Mutaz Muhyi Əbdülhəmid konfransın uğurlu və hamının yüksək qiymətləndirə biləcəyi bir tədbir olduğunu qeyd edib: "Sizin bu mötəbər tədbirin keçirilməsində aktiv rolunuz olmasa idi, belə bir uğurlu konfransın həyata keçirilməsi mümkün olmayacaqdı. Bu baxımından, Sizin bu istiqamətdə göstərdiyiniz cəhd və səylər təqdirəlayiqdir".

İraqlı alim akademik Gövhər Baxşəliyevanın bu cəhd və səylərini onun professional elmi fəaliyyətini, həmçinin vəzifə və öhdəliklərini yüksək səviyyədə həyata keçirdiyinə açıq şəkildə göstərən dəlil-sübut hesab edir: "Mən Sizinlə əməkdaşlıqdan çox məmnunam və Sizin bizə qarşı olan alicənablığınızla fəxr edirəm. Sizə fəaliyyətinizdə uca Tanrıdan müvəffəqiyyətlər arzu edirəm".

# "Yaşıl dünya naminə həmrəylik ili" barədə məsələlər müzakirə olunub



**AMEA Gəncə Bölməsinin Elmi şurasının genişləndirilmiş iclası keçirilib.**

İclasa bölmənin, eləcə də müzakirələrdəki məsələlərə aidiyyatı olan, Elm və Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən tədris-tədqiqat ocaqlarının rəhbərləri və əməkdaşları qatılıblar.

AMEA Gəncə Bölməsinin sədri akademik Fuad Əliyev Elmi şuranın əsas müzakirə mövzusunun Azərbaycan Respublikası Prezidentinin 25 dekabr 2023-cü il tarixli "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında" məsələlərə və bu yöndə alim və tədqiqatçıların, eləcə də geniş ictimaiyyətin üzərinə düşən vəzifələrə həsr olunduğunu bildirib. Akademik Fuad Əliyev qeyd edib ki, Sərəncamın müddəalarında da deyildiyi kimi, ölkəmiz artıq müasir dünyanın etibarlı və məsuliyyətli üzvü kimi planetar problem olan iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz əhəmiyyətli töhfəsini verir. Bu baxımdan, qədəm qoyduğumuz "Yaşıl dünya naminə həmrəylik ili"ndə cəmiyyətimizin hər bir üzvü, ən vacibi isə ətraf mühitin qorunması sahəsində çalışan mütəxəssislərimiz bu tarixi məsuliyyəti dərindən dərk etməlidir.

Akademik Fuad Əliyev toplantıda iştirak edən mütəxəssisləri Gəncəni, eləcə də ümumən respublikanın Qərb bölgəsini özündə birləşdirən geniş bir coğrafi ərazidə ən vacib ekoloji və iqlim problemlərinin aydınlaşdırılması və onların həlli istiqamətində elmi fəaliyyətlərinin səmərəliliyini artırmağa çağırıb.

Müzakirə edilən məsələlərin istiqamətləri üzrə çıxış edənlər ətraf mühitin qorunması, biomüxtəliflik, təbii resurslar, atmosfer çirklənməsi və digər bu kimi məsələlərdə mövcud olan həlli vacib tədbirlər üzrə öz mülahizə və təkliflərini bildiriblər.

Akademik Fuad Əliyev səsləndirilən bu məsələlərin bölgəmiz üzrə əməli elmi konsepsiya halında təqdim olunmasının vacibliyini qeyd edib.

Elmi şurada digər bir məsələ barədə Bölmənin elmi katibi Elnur Həsənov danışıb. O, 2024-cü il ərzində Bölmədə aparılacaq seminarların mövzularını və bu məsələlər üzrə çıxış edəcək əməkdaşların siyahısını təqdim edib. Mövzular Nizami Gəncəvinin irsinə, tarix, ədəbiyyat, sənətşünaslıq və digər elmi və ictimai əhəmiyyət kəsb edən məsələləri əhatə edib.

İclasda elmi tədqiqatlar üzrə birgə koordinasiya məsələlərinin səmərəliliyi baxımından Elm və Təhsil Nazirliyinin tabeliyndə olan institutlar tərəfindən aparılan araşdırmalar və onların mövzuları üzrə aparılacaq seminarlar haqqında da məlumat verilib.

Toplantıda Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2023-cü il tarixli Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında, eləcə də Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında sərəncamlarından irəli gələn məsələlər haqda da danışan akademik Fuad Əliyev bu əlamətdar tarixin qeyd edilməsinə Gəncə alimlərinin də əhəmiyyətli töhfə verəcəklərini bildirib.

Elmi şuranın iclasında, həmçinin Bölmədə yeni Beynəlxalq əlaqələr şöbəsinin təsis olunması, sənədlərin arxivləşdirilməsi məsələsinə dair sədrin imzaladığı sərəncamdan irəli gələn işlər və bir sıra struktur dəyişiklikləri haqqında məsələlər də müzakirə edilib.

# AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin iclası



**AMEA-nın Naxçıvan Bölməsinin Rəyasət Heyətinin 2024-cü ildə ilk iclası olub.**

Əvvəlcə Bölmənin sədri, akademik İsmayıl Hacıyev iclas iştirakçılarını gündəlikdəki məsələlərlə tanış edib.

İsmayıl Hacıyev Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında 25 dekabr 2023-cü il tarixli, "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" və "Məmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında" 30 dekabr 2023-cü il tarixli sərəncamlarından söz açıb. Həmin sərəncamların icrası ilə bağlı AMEA Naxçıvan Bölməsində yerinə yetirilməsi nəzərdə tutulan işləri diqqətə çatdırıb.

"Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsinin təmin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Baş nazirinin 11 yanvar 2024-cü il tarixli sərəncamını qeyd edən bölmə sədri qarşıda duran vəzifələri təfsilatlı şərh edib.

İclasda, həmçinin AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin, elmi-tədqiqat institutlarının elmi şuralarının iş planları təsdiq edilib.

Sonda bir sıra cari məsələlər ətrafında müzakirələr aparılıb.




# 20 Yanvar xalqımızın tarixində şərəfli səhifədir

**20 Yanvar qanlı faciəsindən artıq 34 il ötür. Vaxtilə bu qanlı hadisələrə görə daha çox ağlayıbsızlayır, qəm dəryasına batır, şəhid məzarlarına qərənfillər düzməklə təskinlik tapırdıqsa, indi kədərlənməklə yanaşı, ürəklərdə sonsuz qürur hissi də baş qaldırır. Bu gün hər bir vətəndaşımız Qalib Azərbaycanda yaşamasından qürur hissi keçirir. Bu qalibiyyətin əsasını da, şübhəsiz ki, qəhrəman 20 Yanvar şəhidləri qoydu.**

1990-cı il yanvarın 20-də Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda çoxlu şəhid verdi. Lakin bu mübarizədə xalqımızın iradəsi sınmadı və milli ruhu sarsılmadı. Vətənin bir qarışını belə düşmənə qıymayan cəsarətli, qorxmaz, mərd övladlarımız misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə yeni parlaq səhifə yazdılar. Xalqın birliyi və milli ləyaqət hissi ən müasir silahlarla silahlanmış imperiya ordusuna qalib gəldi. Bu, 20 Yanvar faciəsini səciyyələndirən ən mühüm məqamlardan biridir. Vaxtilə Ulu Öndər Heydər Əliyev bu barədə danışarkən demişdir: “1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının tarixinin ən faciəli qara səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir. Biz o günlərdən nə qədər çox uzaqlaşsaq, həmin günlərin Azərbaycan xalqının tarixində necə mühüm yer tutduğunu bir o qədər dərk edəcəyik və bəlkə də gələcək nəsillər buna daha doğru, daha düzgün qiymət verəcəklər. Ancaq bir şey həqiqətdir ki, 1990-cı ilin 20 Yanvarı Azərbaycan xalqının həyatında dönüş mərhələsi, dönüş nöqtəsi olmuşdur”.

20 Yanvar hadisəsi sovet imperiyası tərəfindən əvvəlcədən planlaşdırılmış hərbi cinayət idi. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridildi. Dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirildi. Bu qanlı faciədən sonra sovet imperiyası Aszərbaycanda özünün bütün mənəvi və sosial dayaqlarını itirdi. Xalqın Sov.İKP-yə və mövcud rejimə qarşı nifrəti son həddə çatdı, Sov.İKP üzvləri kütləvi şəkildə partiya biletlərini ataraq onun sıralarını tərk etdilər.

Həmin vaxt ölkəyə rəhbərlik edənlər bu hadisələrə hüquqi-siyasi qiymət verməyə cəsarət etmədilər. 1990-cı il yanvarın 21-də sovet rejiminin qadağalarına rəğmən, həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələn Ulu Öndər Heydər Əliyev qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi. Cəsarətli bəyanat verərək əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, Moskvanın və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi. İnsanlığa xas olmayan bu faciəyə ilk siyasi-hüquqi qiymət də Ulu Öndər tərəfindən verildi. Ümummilli liderin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verən 21 noyabr 1990-cı il tarixli qərar qəbul etdi. Xalqın təkidi ilə müstəqil Azərbaycana siyasi rəhbərliyə qayıtdıqdan sonra Heydər Əliyev təhlükələrdən qorxub çəkinmədi. Sovet hakimiyyətinin 20 Yanvar cinayətinə etiraz edərək Azərbaycan xalqının başına gətirilən qanlı faciənin ilk siyasi-hüquqi qiymətini verdi. Ulu Öndərin təşəbbüsü və göstərişləri ilə 1994-cü ilin mart ayının 29-da Milli Məclis “1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” qərar qəbul etdi. Ümummilli Lider dövrün mürəkkəbliyinə rəğmən, 20 Yanvar faciəsinin başvermə səbəbləri və günahkarların araşdırılması ilə də məşğul oldu və bunun nəticəsində həqiqətlər üzə çıxdı.

Bu gün Ulu Öndər Heydər Əliyevin yolunu, siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev də şəhidlərin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin həllinə xüsusi diqqət ayırır.

Hər il yanvarın 20-də saat 12:00-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunur, gəmilərdən, avtomobillərdən və qatarlardan SOS siqnalları verilir, hüzn əlaməti olaraq dövlət bayraqları endirilir.

Qanlı Yanvar hadisəsi Azərbaycan xalqı üçün təkcə böyük faciə deyildir. 20 Yanvar həm də ləyaqətini qorumaq üçün hər cür qurban verməyə hazır olan bir xalqın tarixində şərəfli səhifədir. Bu gün Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunması 20 Yanvar şəhidlərinin, ümumilikdə torpaqlarımızın işğaldan azad edilməsi yolunda canlarını qurban vermiş bütün şəhidlərimizin qanının yerdə qalmamasının təsdiqidir.

**ELM**

# Dünya şöhrətli paleontoloq alim

**Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvi, biologiya elmləri doktoru, professor, əməkdar elm xadimi Dəmir Vahid oğlu Hacıyevin yanvarın son günündə doxsan beş yaşı tamam olur. O, 1929-cu il yanvarın 31-də Qax rayonunun İlisu qəsəbəsində anadan olmuş, Azərbaycan Dövlət Universitetinə, bir müddət sonra isə Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olaraq 1952-ci ildə hər iki ali məktəbi fərqlənmə diplomu ilə bitirmişdir. Bəlkə də görkəmli dövlət xadimi Nəriman Nərimanovun qardaşı nəvəsi olduğuna görə o, təyinatla vətənə deyil, Krım vilayətinin ucqar kəndindəki xəstəxanaya göndərildi və gənc həkim burada özünün yüksək savadı və peşəkarlığı sayəsində yerli əhalinin ehtiramını qazandı.**



1950-ci ilin ortalarında Nəriman Nərimanova münasibətdə müsbət dəyişiklik baş verdikdən sonra Dəmir Bakıya qayıdır və Həsən bəy Zərdabi adına Təbiət Tarixi muzeyində elmi tədqiqatlar aparır. Bu dövrdə muzeydə görkəmli alimlər Rəhim bəy Cəfərov, Nəsibə Ələkbərova, Burçak Abramoviç, Sevil Aslanova və başqaları çalışırdılar və Dəmir Hacıyev həmin alimlərlə birlikdə Azərbaycan ərazisini qarış-qarış gəzdi, paleontoloji tədqiqatlar apardı. Alimlər, xüsusilə Binəqədidə heyvanların kütləvi şəraitdə məhv olduğu ərazidə aparılan ekspedisiyada IV dövr faunasına aid zəngin elmi materiallar topladılar. Bununla yanaşı 1955-1961-ci illərdə Mingəçevir və Eldardüzü ərazilərində də çöl tədqiqat işləri apararaq zəngin paleontoloji tapıntılar aşkara çıxartdılar. Həmin materiallar əsasında Dəmir Hacıyev 1961-ci ildə Tbilisi şəhərində “Eldar düzünün gec Sarmat hipparion faunası” mövzusunda dissertasiyasını müdafiə edərək biologiya elmləri doktoru alimlik dərəcəsi aldı.

1962-1967-ci illərdə Dəmir Hacıyev respublikamızın qərb bölgəsində elmi tədqiqat işlərini genişləndirərək biologiya elminə məlum olmayan fəqərəli fauna məskənləri aşkar etmişdir. Onun rəhbərliyi altında çoxlu sayda biologiya elmləri namizədi və biologiya elmləri doktoru alimlik dərəcəsi almış mütəxəssislər meydana gəlmişdir.

1960-cı ildə paleolit arxeoloji ekspedisiyası M.Hüseynovun rəhbərliyi altında apardığı arxeoloji tədqiqatlar nəticəsində dünya şöhrətli Azıx və Tağlar düşərgələri qeydə alınaraq qazıntı işləri aparılmağa başlanmışdır. Paleolit arxeoloji ekspedisiyanın əldə etdiyi fauna qalıqları D.Hacıyev tərəfindən yüksək peşəkarlıqla tədqiq edilmişdir. O, 1961-1969-cu illərdə Azıx və Tağlar paleolit düşərgələrin aparılan arxeoloji qazıntılarında fəal iştirak etmişdir. Məhz bunun nəticəsi olaraq professorun rəhbərliyi altında “Azıx paleolit düşərgəsinin faunası” adlı dissertasiya işi 1969-cu ildə Sabir Əliyev tərəfindən müdafiə olunmuşdur.

Dəmir Hacıyev müəyyən etmişdir ki, Azıxda aşkar olunmuş çənə ölkəmizin ərazisində ən qədim insan çənəsi olub, 30-35 yaşlı qadına məxsus olaraq və 400 min il əvvəl Azərbaycan ərazisində yaşamışdır. Hələlik keçmiş SSRİ ərazisində və Yaxın Şərqdə olan insan məskənlərindən Azıxda tapılan və bu kimi qədim paleoantropoloji tapıntı qeydə alınmamışdır.

Professor Dəmir Hacıyev həmçinin gözəl müəllim idi, o, 1966-1970-ci illərdə Tibb Universitetində prorektor, 1967-1999-cu illərdə isə tibbi biologiya kafedrasına rəhbərlik etmişdir. O, oxuduğu mühazirələrlə professor, müəllim və tələbə heyətinin böyük nüfuzunu qazanmışdı, onun mühazirələrində tibbi biologiya elminin, paleozoologiyanın, paleobiologiyanın və digər elm sahələrinin xarakterik cəhətləri elmi əsaslarla izah olunurdu. Alim 1968-1970-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyası Geologiya institutunda “Paleobiologiya” sektoruna, 1971-ci ildən isə “Təkamül paleontologiyası” laboratoriyasına rəhbərlik etmiş və 1972-ci ildə akademiyanın müxbir üzvü seçilmişdir. Bu onun istər respublika, istərsə ümumittifaq, istərsə də beynəlxalq aləmdə apardığı elmi tədqiqat işlərinin nəticəsinə verilən ən yüksək qiymət idi.

Professor Dəmir Hacıyevin elmi tədqiqat işlərinin diapazonu olduqca genişdir. Onun apardığı dərin və məzmunlu elmi tədqiqatları paleontologiya, paleobiologiya, paleocoğrafiya, paleopatologiya və fəqərəlilər paleontologiyasının bir çox istiqamətlərini əhatə edir. Dəmir Hacıyev Avrasiya məkanında Miosen dövründə yaşamış hipparion faunasını tədqiq edən dünya miqyaslı, görkəmli mütəxəssis idi.

Dəmir Hacıyev daima axtarışda olan, yüksək erudisiyalı ziyalı idi. Onun rəhbərliyi altında çoxsaylı tələbələrlə birlikdə müqayisəli biologiya, odontologiya və digər istiqamətlər üzrə elmi tədqiqat işləri aparılırdı. Professor Hacıyevin apardığı zəngin elmi tədqiqatları nəticəsində Azərbaycanda məməlilərin yeni cins və növləri ilk dəfə təsvir olunaraq dünya ədəbiyyatına daxil edilmişdir. Diş aparatı və skelet sümüklərinin makro və mikro strukturuna əsasən məməlilərin fərdi yaşının təyin olunmasının kompleks üsulu işlənilib hazırlanmışdır. O, 120 elmi əsərin o cümlədən, 12 monoqrafiya və dərsliklərin müəllifidir.

Dəmir Hacıyev yuxarıda qeyd olunanlarla yanaşı Cənubi Qafqazın paleolit düşərgəsindən tapılmış fauna qalıqlarını tədqiq etmiş və beynəlxalq konfranslarda Azərbaycanın, Qafqazın və Yaxın Şərqin paleolit düşərgələrindən tapılmış heyvanat aləminin elmi tədqiqini yüksək səviyyədə həyata keçirmişdir. O, 1978-ci ildə M.Hüseynov, Ə.Məmmədov və Ə.Cəfərovla birlikdə Qarabağın paleolit düşərgəsindən tapılmış fauna qalıqları haqqında elmi məruzə ilə çıxış etmişlər. 1985-ci ildə SSRİ arxeoloqlarının Bakıda keçirdiyi elmi konfransda D.Hacıyev, M.Hüseynov, Ə.Məmmədov, N.Şirinov, Ə.Cəfərov və N.Süleymanovla birlikdə Azıx paleolit düşərgələrində aparılmış kompleks tədqiqatlar haqqında elmi məruzələrlə çıxış edərək konfrans iştirakçılarının ən yüksək qiymətini qazanmışdır.

Professor Dəmir Hacıyev yüksək elmi və pedaqoji fəaliyyətlə yanaşı respublikamızın, keçmiş SSRİ-nin ictimai-siyasi həyatında fəal iştirak edirdi.

Onun elmi-pedaqoji fəaliyyəti, təşkilatçılıq bacarığı, yüksək mədəniyyəti bu gün də bir zirvə olaraq qalmaqdadır.

**Əsədulla CƏFƏROV**
**tarix elmləri doktoru, professor**

# Gənc alimin monoqrafiyası Türkiyədə nəşr edilib




**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktor müavini filologiya üzrə fəlsəfə doktoru, dosent Mehman Həsənlinin böyük qırğız yazıçısı Çingiz Aytmatovdan bəhs edən “Cengiz Aytmatov fenomeni ve Azerbaycan” adlı monoqrafiyası Türkiyədə “Bengü Yayınları” tərəfindən nəşr edilib. 332 səhifəlik monoqrafik tədqiqatda Çingiz Aytmatovun həyatı, janrlar üzrə bədii yaradıcılığı və Azərbaycanla əlaqələri araşdırmaya cəlb edilib.**

Nəşrə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli “Əbədi mogikan” adlı geniş Ön söz yazıb. Kitab Avrasiya Yazarlar Birliyinin sədri Yaqub Öməroğlunun rəhbərliyi ilə nəşrə hazırlanıb. Gənc tədqiqatçı Səfa Başımoğlunun çevirdiyi kitabın redaktorları Kastamonu Universitetinin professoru, aytmatovşünas alim Orhan Söylemez və Dr. Ömer Faruk Ateşdir.

# “Zəngəzur folkloru: kollektiv yaddaşdan metaforik düşüncəyə” kitabı nəşr olunub

**Yaxın günlərdə filologiya elmləri doktoru Sərxan Xavəri, filologiya üzrə fəlsəfə doktorları Səfa Qarayev və Hikmət Quliyevin “Zəngəzur folkloru: kollektiv yaddaşdan metaforik düşüncəyə” kitabı çapdan çıxmışdır.**

Kitabın filologiya elmləri doktoru Sərxan Xavəri tərəfindən yazılmış “Məkan və məna paradiqmalarında Zəngəzur folklorunun lirik kodu” adlı birinci fəslində ilk dəfə olaraq Zəngəzur folkloru xalqın tarixən məskunlaşdığı coğrafi ərazi ilə (siyasi-inzibati xəritə) onun yaratdığı mədəniyyət arasında qarşılıqlı dialektik münasibətlər kontekstində araşdırılmış, xalqın lokallaşdığı coğrafi ərazi (təbii landşaft) ilə onun yaratdığı mədəniyyət arasındakı münasibətlər sosial-antropoloji mənada götürülən “məkan” və “məna” kateqorialarının baxış bucağında nəzərdən keçirilmişdir.

Birinci fəsildə cəmiyyətəqədərki təbiət - coğrafi məkan fiziki mövcudluq, mədəniyyət isə məhz mənalar sistemi kimi nəzərdən keçirilmiş, təbii coğrafi landşaftın mədəniyyət faktına çevrilməsi onun mənalandırılması prosesi kimi xarakterizə edilmişdir. Qeyd edilmişdir ki, sosial-antropoloji folklorşünaslıqda məkan və məna anlayışları, onlar arasında qarşılıqlı münasibətlər xüsusi elmi-kateqorial platformada nəzərdən keçirilir və milli elmi düşüncədə də bu tendensiyalar nəzərə alınmalıdır.




Burada Zəngəzur folklor örnəklərindəki, xüsusən lirik janrdakı “Vətən” anlayışı ilə bağlı motivlər təbii coğrafi landşaftın mədəniyyət faktına çevrilməsi, onun xalq təfəkküründə folklorik olaraq mənalandırılması, sosial hadisə və münasibətlərin emosiemlər vasitəsilə poetik özünüifadəsi prosesi kimi dəyərləndirilmişdir. Araşdırmada son onilliklərin sosial-demoqrafik prosesləri - torpaqlarımızın işğalı, xalqımızın öz doğma yurdundan didərgin düşməsi, yurddaşlarımızın tarixi və fərdi talelərindəki faciələrin lirik folklor örnəklərində bədii təcəssümünün poetik özəllikləri, ictimai məzmunu geniş təhlil edilmişdir.

Kitabın Səfa Qarayev tərəfindən yazılan “Qeyri-şüuri psixoloji reaksiyaların folklorda simvolik proyeksiyası: “Xıdır Nəbi”dən “Novruz”a, “Hal Anası”ndan “Qurd Donlu Qadın”a məna axtarışı (Zəngəzur və Qarabağ materialları əsasında)” adlanan ikinci fəslində psixosemantik məna axtarışı kontekstində Zəngəzur və Qarabağ ərazisindən toplanılmış folklor materialları tədqiq olunmuşdur. Sosial-antropoloji tədqiqatlarda ayrıca bir istiqamət olan psixoanalitik məna axtarışı ilə bağlı araşdırmaların nəzəri postulatları Ziqmund Freyd, Geza Roheym, Karl Abram, Otto Rank, Melanie Kleyn, Alan Dundes, Simon Brunner və başqa psixoanalitik-antropoloqların insanın metaforik və simvolik kontekstdə özünüifadəsi ilə bağlı nəzəri yanaşmalarına əsaslanır. Bu yanaşmanın əsas müddəasına görə metaforik özünüifadə qeyri-şüuri arzu və istəklərin şüurun nəzarətindən yayınaraq təcəssüm olunmasına xidmət edir. İfadə olunan emosiyanın aqressiv, ambivalent və cinsi təbiəti yaradılan folklor materiallarında simvolik və metaforiklik kontekstdə təcəssüm olunur. Bu baxımdan yaradıcılıq endogen emosiyaların ifadəsi üçün “drenaj” funksiyasını həyata keçirir.

Bu nəzəri kontekstdə Zəngəzur və Qarabağ materialları əsasında Novruz bayramı ərəfəsində icra olunan mərasimi davranışların semantikası öyrənilmişdir. Tədqiqatda daha çox oğlan uşaqlarının gecələr papaq ataraq//qurşaq sallayaraq pay yığmaları və sakral kişi başlanğıcını ifadə edən Xızırın gecələr bərəkət paylaması arasında semantik əlaqə göstərilmiş və onların ekvivalent məzmunu müəyyənləşdirilmişdir. Bildirilmişdir ki, folklor faktlarının mifik və sosial məzmunundan asılı olmayaraq onların aktuallaşmasını stimullaşdıran psixoloji emosiyaların müəyyənləşdirilməsinə ehtiyac vardır. Psixoanalitik-antropoloji yanaşma nümayədələri folklorşünasların materialların insan emosiyaları ilə üzvi əlaqəsini göstərməyə cəhd etmədən yalnız onlar üzərində uzun-uzadı təsnifat həyata keçirmələrini və abstrakt mifoloji kontekstdə təhlil etmələrini tənqid etmişlər. Bu təhlil strategiyasını tədqiqatçının yaradıcı subyekt və folklor arasındakı üzvü əlaqəni göstərməkdən qeyri-şüuri yayınmasının təzahürü kimi dəyərləndirmişlər. Bu mənada Novruz ərəfəsində icra olunan mərasimi elementlərin simvolik-metaforik məzmununun analizi kontekstində “yaradılış” konseptinin daxili psixoloji motivləri aşkarlanmışdır.

Tədqiqatda, həmçinin Azərbaycan folklorunda geniş yayılmış aqressiv ana obrazları Zəngəzur və Qarabağ folklor materialları əsasında tədqiq olunmuşdur. Məlum olduğu kimi, folklorda aqresssiv ana obrazları geniş yayılmışdır. Onlar infantil mövqeyin təmsilçisi olan qəhrəmanları və ya uşaqları oğurlayır və onları yeməyə cəhd göstərirlər. Psixoanalitik-antopoloji tədqiqatları maraqlandıran əsas suallardan biri yaradıcılıqda anormal bioloji əlamətlərlə təsvir olunan və daha çox uşaqlara qarşı oral aqressiya ifadə edən qadın obrazlarının genezisində dayanan reallığın müəyyənləşdirilməsi olmuşdur. Bu anormal görünüş və davranışların psixoloji gerçəklikdən kənarda prototiplərini axtarmağın mənasız olduğunu göstərən bu tədqiqatlar onların genezisində yaradıcı mövqenin infantil situasiyasının (uşağın ana döşlərindən qidalanmasının) dayandığını vurğulamışlar. Müəyyənləşdirilmişdir ki, stereotip yanaşmaların bildirdiyi kimi, uşaq fantaziyaları “boşluqdan” ibarət deyil. Elə uşağın inkişafının ilkin dövürlərindən etibarən onda emosional qavram kimi “arzu-günah və cəza” modeli formalaşmağa başlayır. Bu kontekstdə anasını əmməklə (və ya oral aqressiya sərgiləməklə) “adamyeyemə davranış”ı sərgiləyən uşaq günahdan yayınmaq üçün tərsinə proyeksiyalanma ilə adamyeyən ana obrazı yaradır. “Hal anası”, “Qurd donlu qadın”, “Küp qarısı” kimi obrazların psixogenezisi bu psixoanalitik konsept əsasında müəyyənləşdirilmişdir.

Kitabın filologiya üzrə fəlsəfə doktoru, dosent Hikmət Quliyev tərəfindən yazılmış “Folklor və metafolklor münasibətləri kontekstində məna axtarışı (Zəngəzur və Qarabağ materialları əsasında)” adlı üçüncü hissəsində Zəngəzur və Qarabağdan qeydə alınmış Molla Nəsrəddin lətifələri sosial-antropoloji yanaşmalar əsasında tədqiqata cəlb olunmuş və folklorşünaslıq baxımından bir sıra mühüm nəticələr əldə edilmişdir. Müəllif ilk dəfə olaraq Amerika folklorşünası Alan Dundes tərəfindən irəli sürülən “metafolklor” konsepsiyası əsasında Molla Nəsrəddin lətifələrini diqqət mərkəzinə gətirmiş, həm Azərbaycan folkloru, həm də türk dünyası miqyasında mətnləarası variantlar perspektivindən təhlillər aparmışdır.

Araşdırma nəticəsində müəyyən olunmuşdur ki, Zəngəzur və Qarabağ folklorunda Molla Nəsrəddin obrazı təkcə lətifə mətnləri daxilində deyil, eyni zamanda metafolklorik mətn variantları (janrdaxili və janrlarası) çərçivəsində də mövcuddur. Problemə bu rakursdan yanaşan H.V.Quliyev Molla Nəsrəddin obrazının lətifə diskursundan kənarda - rəvayət və inanc mətnlərində mövcud olan mahiyyətini analiz edərək göstərmişdir ki, Molla Nəsrəddin obrazı barədə ənənəvi mədəni yaddaşda həm pozitiv - sakral//mistik, həm də neqativ-triksterik-ironik təsəvvürlər mövcuddur. Eyni zamanda Zəngəzur və Qarabağ folklorunda Molla Nəsrəddin obrazının təhlili onu deməyə əsas vermişdir ki, folklor yaradanların folklor haqqında “şərhlər”ini təqdim edən metafolklorik faktlar, xüsusilə də, inanc mətnləri Molla Nəsrəddin obrazının ambivalent təbiətə malik olduğunu, dolayısı ilə lətifə mətnlərində meydana çıxan gülüşün həm də aqressiv məna daşıdığını göstərir. Aparılan araşdırma nəticəsində müəyyənləşdirilmişdir ki, Zəngəzur və Qarabağ folklorunda Molla Nəsrəddinlə bağlı istər rəvayət, istər inanc, istər nağıl, istərsə də lətifələrin kombinasiyasından təşkil olunan metafolklorik mətnlərin variantlar perspektivindən analizi onu deməyə əsas vermişdir ki, gülüş emosiyası üzərində qurulan bu ad-işarə performativ aktda müxtəlif emosional çalarlara müvafiq olaraq diskurslaşmışdır.

Bütövlükdə, kitab Zəngəzur folklorunun müasir nəzəri-metodoloji yanaşmalar kontekstində tədqiqi, kollektiv mədəni düşüncənin metaforik-simvolik təzahürlərinin araşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

ELAN-MÜSABİQƏ

## Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti Akademiyanın yeni loqotipinin - embleminin hazırlanması üçün müsabiqə elan edir

**AMEA-nın inkişafının hazırkı yeniləşmə mərhələsi müasir elmi çağırışlara, informasiya cəmiyyətinin tələblərinə, həmçinin son dövrlərdə Akademiyanın fəaliyyət istiqamətlərində baş verən dəyişikliklərə cavab verən loqotipinin - embleminin yenidən hazırlanması zərurəti yaranmışdır.**

Bunu nəzərə alaraq AMEA Rəyasət Heyətinin 9 yanvar 2024-cü il tarixli iclasında Akademiyanın loqotipinin - embleminin hazırlanması üçün müsabiqə elan edilməsi ilə əlaqədar qərar qəbul edilmişdir.

Müsabiqənin şərtləri aşağıdakı kimidir:

- AMEA-nın yeni loqotipi - emblemi müasir dünyanın elmi çağırışları və ənənələrini, Milli Elmlər Akademiyasının əsas məqsədləri, vəzifələri, hədəfləri ilə bağlı simvol və təsvirlərin elementlərini əks etdirməlidir;
- AMEA-nın emblemində Akademiya ilə bağlı tarixi binaların, qurğuların və digər əlamətlərin simvolik təsvirlərindən istifadə etməklə bu emblemin Azərbaycan Milli Elmlər Akademiyasına aid olduğu öz əksini tapmalıdır;
- AMEA-nın yeni embleminin təqdim olunan layihəsində “Azərbaycan Milli Elmlər Akademiyası” sözlərinin yazılmasına ehtiyac yoxdur. Zəruri halda bu məqsədlə “AMEA” formatından istifadə edilə bilər;
- AMEA-nın yeni loqotipinin - embleminin layihəsi dairəvi formada yağlı boya ilə və ya rəngli qrafika ilə işlənilməlidir;
- Təqdim edilən emblem - loqotipin eni 30 sm, uzunluğu 42 sm həcmindən az olmamalıdır;
- Müsabiqədə yalnız Akademiyada çalışıb, təsviri sənətlə məşğul olan və digər əməkdaşlar iştirak edə bilərlər;
- AMEA-nın loqotipi - emblemi 21 fevral - 29 fevral 2024-cü il tarixlərində karton üzərində işlənilmiş təsvirdən ibarət olmaqla və elektron qrafik formatda müsabiqə komissiyasına təqdim edilə bilər;
- AMEA embleminin layihələri müsabiqə komissiyasının və ictimaiyyətin baxması məqsədilə təşkil ediləcək sərgidə nümayiş etdirmək üçün müvafiq formada təqdim olunmalıdır;
